EVDƏ QAL, SAĞLAM QAL!

**Azərbaycanda yol infrastrukturu müasirləşib**



Bax 6

**Nəciblik və mənəvi paklıq timsalı**



Bax 4



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 061 (6026) 15 aprel 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## “Mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq”

*Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib*



Bax 2

## Heydər Əliyev Mərkəzindən ABŞ-a həmrəylik mesajı

Aprelin 13-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Amerika Birləşmiş Ştatlarının bayrağı videoproyeksiya olunub. AZƏRTAC xəbər verir ki...



Bax 5

## “Azərbaycan dövləti həm koronavirusla mübarizəni uğurla davam etdirir, həm də insanları yoluxmadan qorumaq üçün tədbirlərini gücləndirir”



*Dünya koronavirusla mübarizəni davam etdirir. Asan deyil. Bəzi dövlətlərdə koronavirusun yayılması azalır, bəzilərində isə əksinə artır. Təəssüf ki, bu mübarizədə bəzi qüsurlar da ortaya çıxdı, tibbi ləvazimatlar...*

Bax 5

## Politoloq: “Azərbaycan Prezidenti dünyaya mesaj verdi ki, bu bəladan ancaq birliyimizlə, dəstəyimizlə xilas ola bilərik”

*Koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş və Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) sədri İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının fövqəladə zirvə toplantısı zamanın çağırışına hərtərəfli cavab verdi...*



Bax 7



## “Zirvə görüşü dövlətimizin gücünü, qüdrətini göstərdi”

Türk Şurasının Zirvə Konfransı şuranın sədri Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə mövcud dünyadakı koronavirus pandemiyası ilə əlaqədar olaraq videokonfrans şəklində keçirildi və bu, dünyada çox böyük...

Bax 7

Bax 16





## Mario Balotelli “Qalatasaray”a keçir?

İtaliya futbolunun ulduzlarından olan Mario Balotelli yeni mövsümdən etibarən Türkiyənin “Qalatasaray” klubunun heyətinə keçə bilər. “Qalatasaray” İtaliyanın...

**Əli Kərimli dağıdıcı tərəfdarlarını silahlı müqavimətə səsləyir?**



Bax 14

**Çin XİN: “Dağlıq Qarabağ məsələsi barədə Çin tərəfinin mövqeyi qəti və dəyişməzdir”**



Bax 5

**Tahir Kərimli: “Hansı dövlətin müxalifəti, başqa dövlətin adamlarını öz dövlətinə qarşı mübarizəyə çağırır?”**



Bax 14

# “Mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq”

*Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib*



*“Bir daha demək istəyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq”*

***Aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə giriş nitqi söyləyib. Prezident İlham Əliyev öz giriş nitqində qeyd edib ki, 2020-ci il uğurla başlayıb. İlin əvvəlinin göstəriciləri deməyə əsas verir ki, Azərbaycanda islahatların davam etdirilməsi yaxşı nəticələrə gətirib çıxarır. Xüsusilə yanvar-fevral aylarında həm iqtisadi, həm də sosial göstəricilərimiz çox müsbət idi: “Mart ayında isə müəyyən qədər tənəzzülə uğradıq. Bu da təbiidir. Çünki koronavirus bütün dünya üçün böyük bəladır və dünya iqtisadiyyatı üçün böyük problemdir. Əgər ilin 3 ayını bütövlükdə götürsək, görərik ki, yenə də inkişaf, tərəqqi var. Ancaq hər kəs bilməlidir ki, indi dünya yeni bir mərhələyə qədəm qoyub və hətta ən inkişaf etmiş ölkələr böyük problemlərlə üzləşiblər.***

Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onun göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu, bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük.

Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək. Əvvəllər qeyd etdiyim kimi, biz addımlarımızı vəziyyətə uyğun atacağıq və əlbəttə, hamımız istəyirik ki, bu karantin rejiminə tezliklə son qoyulsun və vətəndaşlar öz normal həyatına qayıtsınlar. Ancaq bir daha demək istəyirəm ki, bizim üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır. Bu günlərdə mənə ünvanlanan yüzlərlə, minlərlə məktublar, elektron məktublar, mesajlar göstərir ki, vətəndaşlar bizim atdığımız addımları yüksək qiymətləndirirlər.

Ancaq bir daha demək istəyirəm ki, koronavirus pandemiyası nə vaxt qurtaracaq bunu heç kim bilmir, heç kim proqnoz verə bilmir. Ona görə biz də, sadəcə olaraq, həm ölkə daxilində vəziyyəti tam nəzarətdə saxlamalıyıq, geniş monitorinq aparmalıyıq və aparırıq. Eyni zamanda, dünyada gedən prosesləri də yaxından müşahidə edərək öz addımlarımızı elə ataq və tam əmin olaq ki, bu koronavirus pandemiyası artıq təhlükə törətmir. Hesab edirəm ki, ancaq ondan sonra müəyyən dərəcədə yumşalma addımlarının atılması mümkündür. Hələ ki, demək tezdir, amma son günlərin rəqəmləri ümidvericidir. Ümid etmək istəyirəm ki, bu müsbət dinamika, yəni, xəstələrin sayı ilə bağlı müsbət dinamika bundan sonra da davam edəcək. Ancaq yenə də deyirəm, biz addımlarımızı vəziyyətə uyğun şəkildə atacağıq.

O ki qaldı, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinə, bu da qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edir ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq. Bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi bildirmişdir. Eyni zamanda, biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yəni, dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız, - mən buna əminəm, - bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır.

Ancaq bir daha demək istəyirəm ki, iqtisadi vəziyyətə pandemiyanın təsiri qaçılmazdır. Biz artıq bunu görürük. Ona görə hökumətə tapşırıq verirəm, xüsusilə Baş Nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin üç ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, eyni zamanda, cari xərclərə yenidən baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir. Xüsusilə dövlət təşkilatlarının, dövlət şirkətlərinin cari xərcləri əfsuslar olsun ki, şişirdilir və bu sahəyə çox ciddi diqqət göstərilməlidir. Bu sahədə şəffaflığın tam təmin olunması istiqamətində əlavə addımların atılması zəruridir. Hesab edirəm ki, biz bunun hesabına, əlbəttə, öz iqtisadi-maliyyə vəziyyətimizi sabit saxlayacağıq. Eyni zamanda, hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm ki, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, keçən il və bu il. Keçən il büdcəyə proqnozdan əlavə bir milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin üç ayında 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır. Yenə də demək istəyirəm ki, biz bilmirik bu vəziyyət nə qədər çəkəcək. Ona görə öz addımlarımızı elə atmalıyıq ki, iqtisadi, makroiqtisadi sabitlik təmin edilsin. Əlbəttə ki, biz, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir. Bu insanların maaşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır və işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar. Biz burada da çox diqqətli olmalıyıq, sui-istifadədən uzaq olmalıyıq. Bu, həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Doğrudan da işini itirmiş, yaxud da ki, işləməyən insanlara yardım göstərilməlidir. Çünki mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar.

Onu da bildirməliyəm ki, mənim göstərişimlə son aylar ərzində ünvanlı sosial yardım alan insanların sayı artırılıb, indi 70 mindən çoxdur. Əlbəttə ki, hər bir məsələyə biz ayrı-ayrılıqda baxmalıyıq, vahid meyarlar tətbiq olunmalıdır və bu meyarlar vətəndaşlara da aydın olmalıdır ki, bununla bağlı heç kimdə heç bir şübhə qalmasın.

Əlbəttə ki, həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edilmişdir. Əslində, islahatların yeni mərhələsinə start 2018-ci ilin prezident seçkilərindən sonra verilmişdir. Mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır - həm siyasi müstəvidə, iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyük həcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək.”

Dövlət başçısı qeyd edib ki, pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə:

**Ardı Səh. 3**

# “Mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq”

*Prezident İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib*

Əvvəli Səh. 2

“Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik.

Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq. Siyasi islahatlar göz qabağındadır, kadr islahatları aparılıb. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin. Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda, yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə, xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu, bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaq.

Bu islahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında keçirildi. Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır. Seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirildi. Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclisin Sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu, çox müsbət haldır. Ancaq, eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır.

Hesab edirəm ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilmirdi.

Əlbəttə, bəlkə mən hadisələri bir qədər qabaqlayıram. Çünki bu proses hələ təzə-təzə başlayır. Ancaq bəlkə ona görə qabaqlayıram ki, mən bu prosesin sürətlə getməsini arzulayıram. Şadam ki, bizim dialoq təklifinə müxalifət partiyalarının hamısı müsbət cavab verib və artıq siyasi dialoq başlayır. Əminəm ki, bu, ölkəmizə böyük fayda gətirəcəkdir.

O ki qaldı, bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq. Həmin bu qüvvələr Azərbaycanı 1990-cı illərin əvvəllərində ağır vəziyyətə salıblar, xəyanət ediblər, torpaqlarımızın işğalını şərtləndiriblər. Ondan sonra qorxaqcasına qaçıb gizləndilər. Həmin bu adamlar Azərbaycana böyük zərbə vurmuşlar, vətəndaş müharibəsinə start vermişlər. Torpaqlarımız işğala düşən zaman burada qardaş qanı axıdıldı. Bu qruplaşma ölkəmizdə xaos, anarxiya yaratdı, korrupsiya dövlət siyasətinə çevrildi və səriştəsizlik, tərbiyəsizlik, mədəniyyətsizlik artıq AXC-Müsavat hakimiyyətinin rəmzinə çevrildi. O hakimiyyəti təmsil edən adamların yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkə faktiki olaraq dağılma ərəfəsində idi.

Ona görə bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz. Onu bildirməliyəm ki, həmişə nəyisə gözləyirlər və həmişə xarici amilə ümid edirlər. Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb “narıncı inqilab” etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu, bir komediya mənzərəsi yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra “ərəb baharı” başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011-2012-ci illərdə Azərbaycanda “ərəb baharı”nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır. İndi isə koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır.”

X X X

Daha sonra Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Kənd Təsərrüfatı naziri İnam Kərimov çıxış edərək görülən işlər barədə məlumat veriblər.

Dövlətimizin başçısı müşavirəyə yekun vurub. Prezident İlham Əliyev yekun çıxışında qeyd edib ki, son illər kənd təsərrüfatı sahəsində müsbət dəyişikliklər baş verir. Elektron Kənd Təsərrüfatı Proqramı icra edilir. Fermerlərə subsidiyaların verilməsi mexanizmi təkmilləşdirilib və artıq kartlar da verilibdir:

“Bu, çox müsbət haldır, yəni, kənd təsərrüfatı müasir standartlara cavab verməlidir. Belə olan halda, əlbəttə ki, həm məhsuldarlıq artacaq, həm kənddə işləyən insanlar əmək sərf edəcəklər, həm də daxili bazarı təmin edəcəyik və xarici bazarlara da daha geniş çeşiddə məhsullarla çıxa biləcəyik. Kənd təsərrüfatı ilə bağlı olan əsas məsələ məhsuldarlığı artırmaqdır. Kənd Təsərrüfatı Nazirliyi artıq bu istiqamətdə işlər görür, demək olar ki, yetişdirilən bütün növ məhsullar üzrə məhsuldarlıq ildən-ilə artır. Amma biz bilməliyik ki, əhalimiz artır və daxili istehlak da artacaq. Ona görə kənd təsərrüfatının istehsalı yüksək templərlə inkişaf etməlidir ki, biz həm daxili tələbatı ödəyə bilək, eyni zamanda, ixrac bazarlarına da öz məhsulumuzu çatdıra bilək.

Hesab edirəm ki, qeyd etdiyiniz məsələlərin həlli üçün, əlavə vəsait ayrılmalıdır. Mikrokreditlərin verilməsi üçün Prezidentin ehtiyat fondundan vəsaitin ayrılması nəzərdə tutulmalıdır. Hesab edirəm ki, bu məqsədlər üçün 30 milyon manat vəsait ayrıla bilər və müvafiq Sərəncam layihəsi də hazırlansın, mənə təqdim edilsin.

Quraqlıqla bağlı dediklərinizi çox ciddi məsələdir, bu, böyük narahatlıq doğurur. Çünki bu meyl davam edə bilər. Bilirsiniz ki, dünyada iqlim dəyişikliyi ilə bağlı böyük narahatlıq var. Bəzi proqnozlar onu göstərir ki, Azərbaycanda bəlkə on ildən, iyirmi ildən sonra səhralaşma prosesi də istisna deyil. Ona görə biz bəri başdan buna hazır olmalıyıq. Keçən ilin quraqlığı bizə çox böyük problem yaratmışdı və hətta yaşlı insanlar belə quraqlığı xatırlamırlar. Bu il də quraqlıq gözlənilir. Ona görə su ehtiyatlarımızın səfərbər olunması, onlardan səmərəli istifadə edilməsi prioritet məsələyə çevrilir. Heç kimə sirr deyil ki, su olan yerdə məhsuldarlıq da artır və insanların dolanışığı da yüksəlir. Məhz bu məqsədlə ölkəmizdə bir neçə önəmli genişmiqyaslı layihə icra edilmişdir. Əgər Şəmkirçay su anbarı, Taxtakörpü su anbarı vaxtında tikilməsəydi, kanallar çəkilməsəydi, o sudan qidalanan rayonlarda böyük çətinliklər ola bilərdi. Biz son bir neçə il ərzində orta hesabla təqribən yüz min hektara yaxın torpağa suyun verilməsini təmin edirik. Bunlar vaxtilə suvarılmayan, yaxud da ki, suvarılması lazımi səviyyədə olmayan torpaqlardır. Ona görə bundan sonra da kənd təsərrüfatının və fermerlərin bu sahədə tələbatını ödəmək üçün gərək yeni proqram tərtib edilsin. Biz köhnə metodlarla gedə bilmərik. Çünki bu metodların səmərəliliyi özünü doğrultmur. İndi dünya texnologiyaları bütün sahələrdə inkişaf edir, o cümlədən meliorasiya sahəsində. Biz indi bu işləri dədə-baba üsulu ilə görə bilmərik. Yeni texnologiyalar tətbiq edilməlidir. Mənə verilən məlumata görə, bəzi yerlərdə suyun itkisi 40-50 faizə çatır. Baxmayaraq ki, son vaxtlar bu sahəyə böyük investisiya qoyulub. Amma vaxtilə tikilmiş qurğuların, infrastrukturun bir çoxu çürüyüb və həm suyun çatdırılmasına imkan vermir, həm də ki, o sızmalar torpağın şoranlaşmasına gətirib çıxarır. Ona görə biz burada iki ziyan görürük. Onu da bilməliyik ki, bizim su ehtiyatlarımız o qədər də geniş deyil və əsas su mənbələrimiz sərhədlərimizin kənarında formalaşır. Ona görə hər damcı su bizim üçün önəmlidir. Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Sovet vaxtında tikilmiş su kanallarımızın demək olar ki, hamısı torpaq kanallardır. Son vaxtlar biz ancaq beton kanallar tikirik və vaxtilə tikilmiş torpaq kanalları betona alırıq. Beləliklə, su itkisinin qarşısını alırıq. Ancaq hesab edirəm ki, daha irəli baxmalıyıq. İndi dünyanın inkişaf etmiş ölkələrində, xüsusilə, bizim iqlimimizə oxşar iqlimi olan ölkələrdə təcrübə var, orada məhsuldarlıq da çox yüksəkdir və bu təcrübə Azərbaycanda tətbiq edilməlidir.

Ona görə hesab edirəm ki, bu sahədə ciddi irəliləyişə nail olmaq üçün xüsusi komissiya yaradılmalıdır. Su ehtiyatlarından səmərəli istifadə etmək üçün komissiya yaradılacaq. Hesab edirəm ki, komissiyaya Baş Nazirin müavini Şahin Mustafayev rəhbərlik etməlidir. Çünki Şahin Mustafayev İqtisadiyyat naziri işlədiyi dövrdə bu məsələ ilə fəal məşğul olub və mənə müntəzəm olaraq məruzələr edib. Komissiyada aidiyyəti qurumların rəhbərləri - Kənd Təsərrüfatı naziri, İqtisadiyyat naziri, Ekologiya və Təbii Sərvətlər naziri, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyətinin, “Azərsu” Səhmdar Cəmiyyətinin rəhbərləri və digər aidiyyəti qurumların rəhbərləri təmsil olunmalıdırlar ki, konkret tədbirlər planı hazırlansın. Demək olar ki, indi təhlillə bağlı materiallar və belə məlumatlar var. Əsas məsələ odur ki, nə etməliyik, hansı addımlar atmalıyıq. Yəqin, xarici mütəxəssisləri də cəlb etməliyik ki, bizə yaxşı məsləhətlər versinlər. Biz suyun hər bir damcısının qədrini bilməliyik.

Beləliklə, bugünkü müşavirəmiz başa çatmaq üzrədir. Bildirməliyəm ki, əlbəttə, bizim iqtisadi və sosial planlarımız yerindədir. Koronavirus planlarımıza müəyyən təsir etsə də, bizi əsas yolumuzdan döndərə bilməz. Əlbəttə ki, indi bizim bütün səylərimiz koronavirusla mübarizəyə yönəldilib. Bu da təbiidir. Məhz bu məqsədlə mənim Sərəncamımla Baş Nazirin rəhbərliyi altında Operativ Qərargah yaradılıb. Qərargah çox səmərəli işləyir, 24 saat çalışır. Demək olar ki, mən də 24 saat əlaqədəyəm. Gün ərzində bəlkə də 5-6 dəfə zəngləşirik, danışırıq. Deyə bilərəm ki, əgər vaxtında bu addımlar atılmasaydı, əgər çox ciddi koordinasiya aparılmasaydı, bu gün biz daha da böyük problemlərlə üzləşə bilərdik. Biz özümüzü bu günə qədər demək olar ki, çox böyük problemlərdən qoruya bildik. Son iki günün dinamikası, yəni, xəstələrin və sağalanların sayı arasındakı dinamika müəyyən nikbinliyə yol açır. Amma mən hələ ki vaxtı qabaqlamaq istəmirəm, hələ ki təhlil aparılır. Bildiyiniz kimi, karantin rejimi ayın 20-nə qədər qüvvədədir. Növbəti həftə ərzində həm Operativ Qərargah, həm bütün digər aidiyyəti qurumlar öz təkliflərini verməlidirlər ki, ayın 20-dən sonra biz hansı addımları atmalıyıq, karantin rejimi qüvvədə qalacaq ya yox, qalacaqsa hansı formada qalacaq. Biz yumşalmaya nə vaxtdan başlaya bilərik. Biz bütün bunları gərək dəqiq bilək. Bir daha demək istəyirəm ki, əsas məsələ xalqımızı bu xəstəlikdən qorumaqdır. İqtisadiyyat bərpa olunar. Biz indi fəal işləyirik və işləyəcəyik ki, bu vəziyyətdən minimum itkilərlə çıxaq.”

## Rəsmi xronika

Prezident İlham Əliyev İsa Hüseyn oğlu İsayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda səhiyyənin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə İsa Hüseyn oğlu İsayev 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

***

Prezident İlham Əliyev koronavirus pandemiyası şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatının yaxşılaşdırılması üçün vəsait ayrılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Sərəncam imzalayıb.

# Nəciblik və mənəvi paklıq timsalı



***Bu gün Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olan böyük oftalmoloq, Azərbaycanın əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın anım günüdür. Elm aləmində nadir istedadlı şəxsiyyət kimi tanınan, elmə gətirdiyi yenilik və çəkdiyi zəhməti ilə Azərbaycan qadını olaraq xeyirxahlıq, ziyalılıq, analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın həyat yolu və fəaliyyəti olduqca şaxəlidir. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani kefiyyətləri, elmi fəaliyyəti təkrarsız bir insan olaraq xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və zəkasından çağlayan ilahi nuru Onu tanıyanların mənəvi dünyasına daim nur saçır.***

Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir.

Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Bilik” Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: “Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!”

Bəli, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi.

Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi. Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlblərində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım ən yüksək mənəvi hazırlığa malik bir xanım və ana idi.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevirildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**ZÜMRÜD BAYRAMOVA**

# "Azərbaycan dövləti həm koronavirusla mübarizəni uğurla davam etdirir, həm də insanları yoluxmadan qorumaq üçün tədbirlərini gücləndirir"



***Dünya koronavirusla mübarizəni davam etdirir. Asan deyil. Bəzi dövlətlərdə koronavirusun yayılması azalır, bəzilərində isə əksinə artır. Təəssüf ki, bu mübarizədə bəzi qüsurlar da ortaya çıxdı, tibbi ləvazimatlar oğurlandı, qarşılıqlı ittihamlar çoxaldı və s.***

Azərbaycan dövləti hər zaman olduğu kimi müsbət nümunələrlə yadda qaldı. Bəzi ölkələrə tibbi ləvazimatlar göndərildi, qonşu İrana 5 milyon ABŞ dolları civarında yardım edildi. Türk Şurasına üzv dövlətlərin Videokonfransının keçirilməsi təşəbbüsü də Azərbaycan Prezidenti İlham Əliyevə məxsus idi. Bu da müsbət nümunə idi.

İndiki durumda ölkə liderlərinin müzakirələri davam etdirməsi və yardımlaşmaya hazır olmaları həmin dövlətlərdə yaşayan insanlar üçün psixoloji baxımdan olduqca vacibdir. Pandemiya bitəcək, hansı dövlətin özünü necə aparması isə yaddaşlara həkk olacaq. Həyat davam edir, insanlar gələcəyə ümidlə baxmalıdırlar. Koronavirusla mübarizə ilə yanaşı, gündəlik məsələlər də həll olunmalıdır, yollar çəkilməli, təsərrüfatlarda toxum səpinləri aparılmalı, zəruri inşaat işləri davam etdirilməlidir. Bu mənada Azərbaycan dövləti həm koronavirusla mübarizəni uğurla davam etdirir, həm insanları yoluxmadan qorumaq üçün tədbirlərini gücləndirir, eyni zamanda iqtisadiyyatı ayaqda tutur, sosial problemlərinin həlli ilə məşğuldur. Təsadüfi deyil ki, dövlət başçısının rayon və qəsəbələrin problemlərinin həllinə yönəlik qərarlarına ara verilmir.

Ulu öndərin şərəfli adını daşıyan Heydər Əliyev Mərkəzi də koronavirusla mübarizədə ön cərgədədir. Mərkəzin əməkdaşları həm insanlara yardım edir, həm qanvermə aksiyasına qatılır, həm də koronavirusla üzləşən dövlətlərə mənəvi dəstəklərini nümayiş etdirirlər. Aprelin 3-dən başlayaraq hər gün virusdan zərərçəkən bir dövlətin bayrağı həmin ölkənin musiqisinin sədaları altında Mərkəzin binası üzərində proyeksiya olunur. Bununla Heydər Əliyev Mərkəzi koronavirusun geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. İndiyədək koronavirusun geniş yayıldığı Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya və İspaniyanın bayraqları Mərkəz binasının üzərində nümayiş olunub.

Aprelin 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə Respublikasının bayrağı bu ölkənin musiqisinin müşayiəti ilə videoproyeksiya olundu. Türkiyə mətbuatı bu hadisəni geniş işıqlandırdı, qardaş ölkənin xarici işlər naziri Mövlüd Çavuşoğlu sosial şəbəkədə paylaşım edərək "Tək millət, tək ürək, Türkiyə, Az?rbaycan! Birlikdə öhdəsindən gələcəyik" cümləsini yazdı. Əlbəttə? öhdəsindən gələcəyik! Türk birliyini gücləndirmək üçün bizi qarşıda hələ böyük işlər gözləyir. Azərbaycan və Türkiyə prezidentlərinin Türk Şurasının son videokonfransında çıxışlarının əsas qayəsini də məhz türkdilli dövlətlər arasında inteqrasiyanın gücləndirilməsi təşkil edirdi. Azərbaycanın Türkiyə ilə birgə reallaşdırdığı regional layihələrin Mərkəzi Asiyadakı digər qardaş dövlətlərə qədər uzanması bundan xəbər verir.

Qardaşlığın daha bir nümunəsi Türkiyənin paytaxtı Ankarada yerləşən məşhur Atakule qülləsinin Azərbaycan bayrağı ilə işıqlandırılması oldu. İşıqlandırma Türkiyə televiziyaları tərəfindən canlı nümayiş edildi. Heydər Əliyev Mərkəzinin binasında olduğu kimi Atakule qülləsindəki mənzərə də möhtəşəm idi. İşıqlandırma prosesində qüllənin zirvəsində ümummilli lider Heydər Əliyevin "bir millət, iki dövlət!" ifadəsinin, onun ardınca isə "Can Azərbaycana sevgilərlə" şüarı üç rəngli bayrağımızın rənglərı fonunda hərəkətdə olması birliyimizin dönməz olduğunun və həmrəyliyimizin nümunəsi idi.

***Adil Əliyev***
***Milli Məclis Sədrinin müavini***

# Heydər Əliyev Mərkəzindən ABŞ-a həmrəylik mesajı



Aprelin 13-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Amerika Birləşmiş Ştatlarının bayrağı videoproyeksiya olunub. AZƏRTAC xəbər verir ki, bununla Azərbaycanın koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həmrəyliyi nümayiş olunub. Qeyd edək ki, aprelin 3-dən başlayaraq hər gün virusdan zərərçəkən bir dövlətin bayrağı həmin ölkənin musiqisinin müşayiəti ilə mərkəzin binası üzərinə proyeksiya olunur. Bununla Heydər Əliyev Mərkəzi COVID-19-un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. İndiyədək koronavirus xəstəliyinin geniş yayıldığı Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya, İspaniya, Türkiyə və Böyük Britaniyanın bayraqları Mərkəzin binasının üzərində nümayiş olunub.

# Akkan Suver: "Azərbaycan və Türkiyə bayraqlarına qarşılıqlı ehtiram sarsılmaz birliyin rəmzidir"



Koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə aprelin 11-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Türkiyə bayrağının bizim ölkənin musiqisinin müşayiətilə videoproyeksiya olunmasını böyük sevgi ilə qarşıladıq. Bunun ardınca Ankaradakı əzəmətli Atakule qülləsinin üç rəngli Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılması, qüllənin zirvəsində ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamının, onun ardınca isə "Can Azərbaycana sevgilərlə" şüarının üç rəngli bayrağın rəngləri fonunda hərəkət etməsi bir daha göstərdi ki, Ümummilli Liderimizin şəxsiyyəti xalqlarımız tərəfindən əbədiyyətə qədər uca tutulacaq. Hesab edirəm ki, Azərbaycan və Türkiyə bayraqlarına qarşılıqlı ehtiram sarsılmaz birliyin rəmzidir

Bu fikri AZƏRTAC-a açıqlamasında ifadə edən "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, professor Akkan Suver bildirib. O deyib: "Azərbaycan bütün dünyanı sürətlə cənginə alan məlum pandemiya ilə mübarizədə sözün əsl mənasında insanlıq tarixinə qızıl hərflərlə yazılan mövqe nümayiş etdirdi. Bununla bağlı atılan hər bir addımda xalqın, ölkənin və dövlətin maraqları bərabər şəkildə qorundu. Həmçinin Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüş keçirildi. Zirvə görüşündə nümayiş olunan mövqe ümumbəşəri dəyərləri ilə tarixə düşdü. Türk Şurası yaranandan bəri ən böyük tərkiblə dünya ictimaiyyətinə birlik və həmrəylik töhfələri verdi".

# Çin XİN: "Dağlıq Qarabağ məsələsi barədə Çin tərəfinin mövqeyi qəti və dəyişməzdir"



Dağlıq Qarabağ məsələsi barədə Çin tərəfinin mövqeyi qəti və dəyişməzdir. AZƏRTAC xəbər verir ki, Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Çjao Liszyan bu fikri Çinin CCTV beynəlxalq xəbərlər telekanalının müxbirinin Azərbaycanın əzəli ərazisi, hazırda Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağda bu gün keçirilən qondarma "prezident seçkiləri" ilə əlaqədar Çin tərəfinin mövqeyi haqqında sualını şərh edərək söyləyib. Çjao Liszyanın sözlərinə görə, Çin ümid edir ki, əlaqədar tərəflər regionda sülhü və sabitliyi qorumaq üçün mübahisəli məsələləri siyasi dialoq yolu ilə nizamlayacaqlar. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi deyib: "Çin tərəfi regionun sabit inkişafı üçün səy göstərməyə hazırdır".

Qeyd edək ki, Çin, əvvəlkitək, bu münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır.

# "Azərbaycan hökuməti əhalinin sosial müdafiəsini diqqət mərkəzində saxlayır"

"Koronavirus pandemiyasının ölkəmizin iqtisadiyyatına və sosial həyatına mənfi təsirini azaltmaq məqsədilə Azərbaycan hökuməti tərəfindən sistemli tədbirlər həyata keçirilir. Bu istiqamətdə Tədbirlər Planının təsdiq olunması böyük əhəmiyyət kəsb edir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri yap.org.az saytına Milli Məclisin deputatı Sevinc Hüseynova deyib.

S.Hüseynova bildirib ki, Tədbirlər Planı iqtisadi artıma və sahibkarlığa dəstək, məşğulluq və sosial rifaha dəstək, makroiqtisadi və maliyyə sabitliyini əhatə edir. Onun sözlərinə görə, sənəddə məşğulluğa və sosial rifaha dəstək məqsədilə dörd istiqamət üzrə on tədbir əksini tapıb və ümumilikdə 2 milyon vətəndaşı əhatə edən bu tədbirlər üçün 400 milyon manat vəsait ayrılıb. Bu tədbir dövlət sektorunda çalışan 910 min, qeyri-dövlət sektorunda çalışan 710 min işçini əhatə edir. Eləcə də, əhalinin məşğulluq imkanlarının artırılması nəzərdə tutulur.

"Tədbirlər Planı həm məşğul əhalinin, yəni, muzdla işləyənlərin,



eyni zamanda, çalışmayan vətəndaşların sosial təminatını və eləcə də onlara birbaşa yardımın edilməsini nəzərdə tutur. Belə ki, dövlət və özəl sektorda çalışanlara dəstək, məşğulluq məsələləri, yaşı 65-dən yuxarı olan vətəndaşlara qayğı və s. məsələlər hökumətin diqqət mərkəzindədir. Sənəddə iş yerlərinin, eləcə də sosial sabitliyin qorunması istiqamətində vəsaitlərin ayrılması nəzərdə tutulur. Birinci istiqamət pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqlarının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsidir. Məqsəd iş yerlərinin sayının azaldılmaması və həmin sektorlarda, yəni, orta və iri sahibkarlıq subyektlərində çalışan vətəndaşların indiki halda işləməsələr və məzuniyyətdə olsalar belə, əməkhaqlarını ala bilmələridir. Bu, orta və iri sahibkarlıq subyektlərində çalışan vətəndaşları əhatə edəcək. Əgər hansısa bir vətəndaşın kiçik, orta və iri sahibkarlıq subyektində muzdlu işçi kimi əməkhaqqı müqaviləsi varsa, dövlət ona dəstək göstərəcək".

Millət vəkili deyib ki, müvəqqəti məşğulluğun təmin edilməsi üçün koronavirusun mövcud olduğu dövrlərdə iki ay müddətinə 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması prosesinə başlanılıb. Bu məqsədlə büdcədən 30 milyon manat vəsait ayrılıb. Dövlət məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan 200 min şəxsə yaşayış minimumu həcmində, yəni, 190 manat birdəfəlik ödənişin verilməsi nəzərdə tutulur.

"İşsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsi və proaktiv təyinat mexanizminin yaradılması üçün 20 milyon manat vəsait ayrılacaq. Xüsusi karantin dövründə bütün ailələrə ünvanlı sosial yardımın verilməsinin rejim bitənədək davam etdirilməsi və ünvanlı dövlət sosial yardımının təyinatının sadələşdirilməsi nəzərdə tutulur. Bu, 62 min insanı əhatə edəcək. Aztəminatlı ailələrin ünvanlı sosial yardım proqramından faydalanmaq imkanlarının və proqrama əlçatanlığın artırılması işləri nəticəsində bu yardımı alan ailələrin sayı artmaqda davam edir. 12 aprel tarixinə 78 min 722 ailə və ya 32666 883 nəfər ailə üzvü yardım alıb, artım 1 aprel tarixi ilə müqayisədə 8 min 114 ailə və ya 33 644 nəfər ailə üzvüdür. Hər ailəyə düşən yardımın məbləği 222 manatdır. Eyni zamanda, sosial baxımdan həssas qrupa aid ailələrin üzvü olan tələbələrin təhsil haqqı dövlət tərəfindən ödəniləcək. Eləcə də, yaşı 65-dən yuxarı olan vətəndaşlara, ahıl və tənha insanlara sosial xidmətin göstərilməsi çox vacib məsələlərdir"-deyən, S.Hüseynovanın fikrincə, həyata keçirilən tədbirlər dövlətimizin uğurlu sosial siyasətinin ifadəsidir.

Millət vəkili söyləyib ki, ümumilikdə, 9-12 aprel tarixlərində 55 min işsiz üçün birdəfəlik ödəmə təmin edilib. İşsizlikdən sığorta və peşə hazırlığı kurslarının müdavimlərinin sosial müdafiəsi üçün də addımlar atılır. Özünüməşğulluq proqramının genişləndirilməsi və icrasının sürətləndirilməsinə gəlincə, 2020-ci il üzrə 11 ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulub. Bütün bunlar onu göstərir ki, cənab Prezidentin qeyd etdiyi kimi, dövlət siyasətinin mərkəzində vətəndaş amili dayanır.

***Ceyhun Rasimoğlu***

# Azərbaycanda yol infrastrukturu müasirləşib

*Prezident İlham Əliyev: "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil"*

***Son illər paytaxt Bakıda və rayonlarda yol infrastrukturunun yaradılması ilə bağlı mühüm tədbirlər görülür. Bütün bu tədbirlər vətəndaşların rahatlığının və onların təhlükəsizliyinin təmin olunmasına yönəlib. Həyata keçirilən məqsədyönlü işlər nəticəsində yol-nəqliyyat kompleksinin ayrı-ayrı qurğuları yüksək keyfiyyətlə tikilərək istismara verilir. Dünyada neftin qiymətinin aşağı düşməsinə və iqtisadi çətinliklərə baxmayaraq, ölkəmizdə dövlət başçısının rəhbərliyi ilə sosial-iqtisadi inkişafla bağlı nəzərdə tutulan bütün işlər uğurla və vaxtında icra olunur. Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin əsas prioritetlərindən birinə çevrilib.***




"Azərbaycanda ən müasir nəqliyyat-yol infrastrukturu yaradılacaq", - deyən ölkə başçısı İlham Əliyevin sərəncamları və tapşırıqları ilə ölkəmizdə yol infrastrukturu müasirləşib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Bakı-Sumqayıt yolunun genişləndirilməsi layihəsi də bu baxımdan çox böyük rol oynayır. Bakı şəhərinin şimal girişində xüsusən günün pik saatlarında yaranan tıxac və avtomobillərin sıxlığının aradan qaldırılması baxımından bu layihənin olduqca mühüm əhəmiyyəti var. "Nəzərə alsaq ki, Bakı-Sumqayıt yolu artıq mövcud olan nəqliyyatı götürə bilmir və hərəkət çox intensiv xarakter daşıyır, əlbəttə, bu yolun genişləndirilməsi zəruri idi" - deyən dövlət başçısı bildirib ki, indi Bakı ilə Sumqayıt elə bil ki, birləşib, bir çox adamlar Bakıda işləyib Sumqayıtda yaşayırlar və əksinə: "Ona görə bu yolun strateji xarakterini nəzərə alaraq, - eyni zamanda, bu, şimal istiqamətə gedən yoldur, - biz bu layihəni icra edirik. Bu, əlbəttə, texniki cəhətdən asan layihə deyil. Çünki çoxlu köçürülmələr, yeni körpülərin tikintisi, bəzi obyektlərin köçürülməsi nəzərdə tutulur. Bu nəqliyyat layihəsinin icrası Dövlət İnvestisiya Proqramında da nəzərdə tutulur. Ona görə piyada keçidlərinin tikintisi, - bu istiqamətdə də son illər böyük işlər görülüb və vətəndaşların təhlükəsizliyi üçün bunun çox böyük əhəmiyyəti var, - yol infrastrukturunun müasirləşdirilməsi, tıxacların azalması və aradan qaldırılması istiqamətində əlavə addımlar atılacaqdır".






## "İNDİ KORONAVİRUS DÖVRÜNDƏ İQTİSADİ FƏALLIQ AŞAĞI DÜŞÜB, AMMA BU, MÜVƏQQƏTİ MƏSƏLƏDİR"

Qeyd edək ki, dövlət başçısının Sərəncamı ilə Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7-ci kilometrindən başlayaraq 14-cü kilometrə - Masazır körpüsü deyilən yerə qədər yolların genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Eyni zamanda, dövlət başçısının göstərişi ilə "Xırdalan dairəsi" deyilən hissədə yeni tunelin inşasına başlanılıb. May ayının sonuna qədər görülən işlərə yekun vurulacaq. Görülən işlər piyadaların və sürücülərin hərəkətini rahatlandırır. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, son illər ərzində Bakıda bir çox yol-nəqliyyat layihələri icra edilmişdir. Əgər bu layihələr icra edilməsəydi, bu gün Bakıda tıxacdan tərpənmək mümkün deyildi: "Onlarla körpü, yol qovşaqları, yeni yolların çəkilişi, yolların genişləndirilməsi, yol çəkilişində nəzərdə tutulan standartlar. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda yol təsərrüfatının keyfiyyətini ən yüksək qiymətlərlə fərqləndirir və yolların keyfiyyətinə görə biz dünyada 30-cu yerlərdəyik. Ancaq əhali artır, fəallıq artır. Baxmayaraq ki, indi koronavirus dövründə iqtisadi fəallıq aşağı düşüb, amma bu, müvəqqəti məsələdir. Bu xəstəliyə qarşı mübarizə yekunlaşandan sonra iqtisadi fəallıq bərpa ediləcək".

## AVTOMOBİL YOLLARININ YENİDƏN QURULMASI VƏ TİKİNTİSİ ÜZRƏ İRİMİQYASLI LAYİHƏLƏR HƏYATA KEÇİRİLİR

Ölkə regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları təsdiq edilərkən qarşıya qoyulan başlıca hədəflər arasında yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara çatdırılması xüsusi yer tutub. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" - deyən Azərbaycan Prezidenti buna nail olmaq məqsədilə yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilməsinə diqqət ayırır.

Prezident İlham Əliyev bölgələrə, demək olar ki, bütün səfərləri zamanı respublika və yerli əhəmiyyətli yolların yenidən qurulması, hətta ucqar dağ kəndlərinə yeni yolların çəkilməsi ilə bağlı konkret tapşırıqlar verir. Bunun nəticəsi olaraq Lənkəran-Lerik, Masallı-Yardımlı, Gəncə-Daşkəsən-Xoşbulaq, Quba-İspik-Xınalıq, Şamaxı-Pirqulu, Tovuz-Əlibəyli, Şəmkir-Gədəbəy, İsmayıllı-Qəbələ, Xaldan-Mingəçevir, Ağdaş-Ləki, Quba-Qəçrəş-Qımılqazma, Qəbələ-Ağdaş, Oğuz-Qəbələ, Quba-Qusar, Şəki-Qax, Ağstafa-Poylu-Gürcüstan sərhədi, Yevlax-Bərdə və digər avtomobil yolları yenidən qurulmuş, ölkədaxili yol infrastrukturu əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Bu gün ölkəmizdə avtomobil yollarında hərəkətin təhlükəsizliyini və vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək məqsədilə kompleks tədbirlər icra olunur. Bu baxımdan, yerüstü və yeraltı piyada keçidlərinin tikintisi işləri xüsusi əhəmiyyəti ilə seçilir. Görülən işlər ümumilikdə paytaxtımızın nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə töhfə verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Politoloq: "Azərbaycan Prezidenti dünyaya mesaj verdi ki, bu bəladan ancaq birliyimizlə, dəstəyimizlə xilas ola bilərik"



***Koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş və Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) sədri İlham Əliyevin təşəbbüsü ilə keçirilən Türk Şurasının fövqəladə zirvə toplantısı zamanın çağırışına hərtərəfli cavab verdi.***

Türk Şurası qlobal miqyasda dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına dair sammit keçirən ilk beynəlxalq təşkilat kimi tarixə düşdü. Videokonfrans vasitəsilə təşkil edilən toplantıda Azərbaycan Prezidenti dünyanı qorxu və təlaşın bürüdüyü bir vaxtda vəziyyətdən çıxış yolunu göstərdi. Dövlətimizin başçısı dünyaya mesaj verdi ki, çətin şəraitdə panikaya, pessimizmə qapılmaq yox, özünü ələ alaraq irəliyə doğru baxmağı bacarmaq lazımdır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq Tofiq Abbasov deyib.

Politoloq bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışı ilə insanlığa labirintdən çıxış yolu göstərərək qarşılıqlı münasibətlərin real konfiqurasiyasını aydınlaşdırdı. Dünya birliyi aydın gördü ki, Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynayaraq nəinki öz problemini həll edir, həm də başqalarının dərdinə şərik olur. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, məqsəd yalnız xoş gündə deyil, çətin günlərdə də bir-birinə kömək olmağı bacarmaqdır.

"Dünyanı bürüyən epidemiya yalnız həyat ritmini yavaşlatmadı, həm də bəzi mətləbləri anlatdı. Bəzi təşkilatların və qurumların fəaliyyəti özünü doğrultmadı. Avropa İttifaqı belə bir vaxtda öz nüfuzunu qoruyub saxlaya bilmədi və inamı itirdi. "Böyük İyirmilər"in son sammitindən sonra BMT-nin Baş katibi Antonio Quterreş acı həqiqəti etiraf edərək təəssüfləndiyini bildirdi. Baş katibi məyusluğa uğradan səbəb "Böyük İyirmilər"in seyrçi münasibəti və imkanlı olan dövlətlərin ehtiyacı olanlara yardım etmək arzusunda olmaması idi.

"Bir məqamı xüsusilə vurğulamaq istəyirəm ki, Türk Şurası 4 il bundan əvvəl Qazaxıstanda Zirvə görüşünə ev sahibliyi edəndə Macarıstan bu toplantıda müşahidəçi qismində iştirak etmişdi. 2019-cu ilin noyabrında Macarıstanın Baş Naziri Viktor Orban Naxçıvan Bəyannaməsinin qəbul edilməsinin 10 illiyinə həsr olunmuş sammitdə iştirak etmək üçün Bakıya gəldi. Aprelin 10-da keçirilən Zirvə görüşündə Baş Nazir yardım üçün Azərbaycana təşəkkür etdi. Bununla biz şahid olduq ki, Avropa İttifaqının üzvü olan Macarıstan koronavirusla mübarizədə dəstəyi, köməyi Avropadan deyil, Azərbaycandan, Türkiyədən aldı. Macarıstanın Baş Nazirinin sözləri dost bir Avropa ölkəsində hökm sürən əhval-ruhiyyəni aydın şəkildə ifadə edir: "Buna görə minnətdarıq və bunu heç vaxt unutmayacağıq. Cənab Prezident Əliyev, əziz dostum, Azərbaycanın bizə göstərdiyi köməyə görə Sizə çox minnətdarıq". Məncə, bu sözlərdə hər şey aydın deyildi.

Politoloq bildirib ki, Azərbaycan lideri yüksək məsuliyyət, həmrəylik və məqsədyönlü hərəkətlərlə zamanın çağırışına vaxtında reaksiya verdi və "pandemiyanın ilk günlərindən qarışıq və geri çəkilən" ölkələrin və təşkilatların mövqeyini bölüşmədiyini açıq şəkildə bildirdi. Ümumdünya Səhiyyə Təşkilatı, Macarıstan, İran və digər dövlətlərə hər cür yardım göstərmiş Azərbaycan nümunəsi dünyaya örnəkdir. Azərbaycan Prezidenti qürurla bəyan etdi: "Qlobal pandemiya şəraitində Türk Şurasına üzv dövlətlər bir-birindən ayrılmadılar. Türk Şurası bir təşkilat olaraq digər beynəlxalq təşkilatlarla da əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də dəstək verir". Bu sözlər Azərbaycan liderinin yüksək siyasi etikasını, praqmatizmi, vətəndaşlıq və bəşəriyyətin taleyi ilə bağlı narahatlığını əks etdirir.

T.Abbasov diqqətə çatdırıb ki, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adanoma Qebreyesusun Zirvə toplantısında iştirak etməsi və Azərbaycana, Türkiyəyə təşəkkür etməsi özü-özlüyündə hər şeyi deyir. Koronavirusla mübarizədə Azərbaycanın təcrübəsi dünyada tanındı. ÜST-nin Baş direktoru Azərbaycanın təcrübəsini nümunə göstərir. Çünki Azərbaycanın təcrübəsi rasional xarakter kəsb edir. Praqmatik siyasət yürüdən rəhbərlər yalnız bu günlə deyil, gələcəklə yaşayırlar. Azərbaycan Prezidenti də öz şəxsi nümunəsi, dövlətimizin nümunəsi ilə başa saldı ki, bədbinliyə qapılmaq lazım deyil. Özünü ələ almaq və davam etmək lazımdır.

Dəstək Proqramının əhəmiyyətindən danışan politoloq bildirib ki, Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə vəziyyətini sabit saxlamaq üçün dövlət büdcəsindən 2,5 milyard manat vəsait ayrılıb. Proqram çərçivəsində işsiz insanlara birdəfəlik müavinətlər verilir. Dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib, kommunal ödənişlərə güzəşt edilib. Ölkədə səhiyyənin inkişafı məsələsinə toxunan T.Abbasov müalicə alanlar üçün müasir tipli xəstəxanalarda, klinikalarda hər cür şəraitin təmin olunduğunu qeyd edib. Bildirib ki, ölkəmizdə vəziyyət ciddi nəzarət altındadır və vətəndaşların rifahı naminə bütün mümkün vasitələrdən istifadə olunur.

Sonda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün əhəmiyyətini bir daha vurğulayan politoloq deyib: "Zirvə görüşü geosiyasi baxımdan həqiqətən bənzəri olmayan bir gedişat idi. Videokonfrans iştirakçıları Azərbaycan liderinin müdrikliyini, humanizmini, praqmatik siyasətini yüksək dəyərləndirdilər. Bu görüş vasitəsilə dünya səviyyəsində Prezident İlham Əliyevin imzası ilə böyük bir təcrübə toplandı və Azərbaycan Prezidenti bütün dünyaya mesaj göndərdi ki, biz bu bəladan ancaq birliyimizlə, dəstəyimizlə xilas ola bilərik".

# "Zirvə görüşü dövlətimizin gücünü, qüdrətini göstərdi"



Türk Şurasının Zirvə Konfransı şuranın sədri Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə mövcud dünyadakı koronavirus pandemiyası ilə əlaqədar olaraq videokonfrans şəklində keçirildi və bu, dünyada çox böyük əks-səda, böyük maraq doğurdu. Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

Komitə sədrinin sözlərinə görə, bu maraq birinci ona görədir ki, Türk Şurası dünyada birinci və yeganə təşkilatdır ki, öz müzakirələrini pandemiyaya həsr etdi: "Beynəlxalq təşkilat kimi, birinci olaraq pandemiya problemini beynəlxalq bir problem kimi, ümumbəşəri problem kimi gündəmə gətirən, müzakirə edən və birlikdə mübarizə aparmağın zəruriliyini qeyd edən Türk Şurası oldu. Bu da Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutdu və bunun bir daha əlamətdar hadisə olması ondan ibarət oldu ki, Türk Şurasının bu videokonfransına həm də Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri qoşuldu və burada artıq Türk Şurası ümumdünya çapında koronavirusla mübarizə aparan beynəlxalq təşkilat kimi dünya tarixinə düşdü. Bu, çox böyük bir tarixi addımdır, böyük bir tarixi nailiyyətdir. Sözsüz ki, pandemiya da bitəcəkdir, dünya öz əvvəlki yaşam tərzinə, həyatına qayıdacaqdır. Amma bu, tarixdə qalacaq ki, pandemiya ilə mübarizədə ilk dəfə Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Şurası beynəlxalq bir konfrans keçirdi və öz töhfələrini bu mübarizədə bəşəriyyətə verdi. Bu, işin birinci tərəfidir. Digər tərəf ondan ibarətdir ki, həmin konfransda çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri Azərbaycanın koronavirusla mübarizəsini çox yüksək qiymətləndirdi, dünya üçün örnək adlandırdı və Azərbaycan təcrübəsinin bölüşülməsinin zəruriliyini vurğuladı və Azərbaycanın bu sahədə ən uğurlu mübarizə aparan ölkələr sırasında olduğunu göstərdi ki, bu da çox böyük bir nailiyyət idi. Eyni zamanda, Cənab Prezident şuranın sədri kimi bütün konfrans boyu bu konfransı idarə etdi və Azərbaycanın koronavirusla mübarizədə əldə etdiyi təcrübəni Türk Şurası üzvləri ilə bölüşdü və eyni zamanda, hər kəsə dəstək verməyə hazır olduğumuzu bildirdi. Bu da Azərbaycan dövlətinin gücü, qüdrəti, eyni zamanda, təkcə beynəlxalq deyil, həm də ümumdünya siyasətində aparıcı bir dövlət olduğunu bir daha göstərdi. Digər tərəfdən Türk Şurasının bu konfransa qoşulan digər liderləri də Azərbaycan haqqında, Azərbaycan Prezidenti haqqında, onun bütövlükdə ölkə üçün, region üçün, regionun inkişafı üçün, birliyimizin möhkəmlənməsi üçün gördüyü işlərlə yanaşı, həm də koronavirusla mübarizədə apardığı tədbirlərin çox önəmli olduğunu vurğuladılar və bir daha Azərbaycanın bu işdə nə qədər fəal olduğunu və Cənab Prezidentin nə qədər aparıcı rol oynadığını göstərdilər. Heç də təsadüfi deyil ki, videokonfrans qurtarandan sonra dünyanın aparıcı dövlətləri, aparıcı kütləvi informasiya vasitələri bunu bir müsbət nümunə kimi göstərərək digər təşkilatların, beynəlxalq təşkilatların bu şəkildə koronavirusla mübarizəyə qoşulmasını, beynəlxalq təcrübənin bolüşülməsini, beynəlxalq yardımlaşmanın vacibliyini vurğuladılar və Azərbaycanı nümunə göstərdilər. Bu, təbii ki, bizim hamımızı sevindirir, inam hissimizi artırır və Azərbaycanın regionda, eləcə də bütövlükdə Türk Dövlətləri sırasında nüfuzunun yüksək olduğunu göstərir, aparıcı dövlət olduğunu göstərir və o inamı yaradır ki, koronavirusla mübarizədə də qısa müddət ərzində ən az itkilərlə çıxan dövlətlərdən biri də Azərbaycan olacaq və Azərbaycan bundan sonrakı sosial-iqtisadi, ictimai-siyasi inkişafında yeni bir mərhələyə qədəm qoyacaq və post-pandemiya dövründə də regionun və Türk Birliyinin aparıcı dövləti olacaqdır".

***İnam Hacıyev***

# "Müharibə gedir, düşmən məlumdur, lakin görünmür"



"Müharibə gedir, burada düşmən məlumdur, lakin görünmür. Bu, vəziyyəti daha da çətinləşdirir, lakin buna baxmayaraq, hətta qabaqcıl dövlətlərdə belə koronavirusla mübarizədə sanki pandemiya ilə barışmaq tendensiyası yaşandığı halda, Azərbaycan bu məsələdə öz öncüllüyünü ortaya qoydu". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva Türk Şurasının videokonfrans vasitəsilə həyata keçirilən fövqəladə Zirvə toplantısında Azərbaycanın pandemiya ilə mübarizə fonunda önə çıxmasından danışarkən deyib.

Millət vəkili bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev növbəti ilkinə, uğuruna və zəfərinə imza atdı və ilk dəfə olaraq türk dövlətləri tarixində videokonfrans vasitəsilə dövlət başçılarını bir araya gətirdi: "Prezident Türk Şurasının dövlət və rəhbərlərinin, dünyada yaşanan pandemiya ilə bağlı bir araya toplayıb, onların fövqəladə Zirvə toplantısını təşkil etdi. Azərbaycan bu qurumun həm təşəbbüşçüsü, həm yaradıcısı, həm də ən fəal üzvlərindən biridir. Hamıya məlumdur ki, ötən ilin payızında, oktyabr ayında Azərbaycanda qurumun növbəti möhtəşəm Zirvə görüşü baş tutmuşdu. Həmin görüşdə sədrlik növbəsi Azərbaycana keçmişdi. Azərbaycan bütün beynəlxalq təşkilatlarda üzvlük və sədrlik etdiyi dövrlərdə hər zaman qurumlara öz töhfəsini verib. Dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasına öz töhfələrini verib, o cümlədən də Türk Şurasının həm üzvü kimi, həm də onun sədri kimi bu qurumun fəaliyyətinə də öz töhfələrini verib. Azərbaycanın bu quruma rəhbərlik etdiyi dövr əfsuslar olsun ki, dünyamız üçün çox çətin, həm də Türk Şurası ölkələri üçün çox gərgin bir dövrə təsadüf etdi. Bu da dünyada yaşanan koronavirus pandemiyası ilə bağlı idi".

Onun sözlərinə görə, videokonfransda da Azərbaycanın bu yöndəki addımları çox müsbət qiymətləndirilib və dünya üçün Azərbaycanın nümunə olduğu bildirilib: "Hamımız şahid olduq ki, Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri də videokonfransa qoşuldu. Onun tərəfindən də Azərbaycanın fəaliyyəti çox böyük qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyev Türk Şurasının digər dövlət və hökumət rəhbərlərinə Azərbaycanın bu məsələdə müsbət təcrübəyə malik olduğunu bundan yararlanmalarının faydalı ola biləcəyini dilə gətirdi. Bildirildi ki, Azərbaycanın sədrliyi dövründə digər məsələlərdə olduğu kimi, bu təhlükənin də aradan qaldırılmasında səylər birləşdirilməlidir. Ölkə prezidentimiz bir daha Azərbaycanda görülən işlər haqqında, atılan addımlar haqqında məlumat verdi. Bir daha bəyan etdi ki, biz birlikdə bu bəladan xilas olacağıq".

Kamilə Əliyeva sonda qeyd etdi ki, Türk Şurasının üzvləri sözdə deyil, əməldə də artıq həmrəylik, birlik, əməkdaşlıq nümayiş etdirirlər və artıq bu təşkilat özünü dünyada təsdiqləməkdədir: "Təşkilatın qısa müddət ərzində nüfuzunun artmasında, dünyada tanınmasında Azərbaycanın verdiyi və bundan sonra da verəcəyi töhfələr misilsizdir. Prezident İlham Əliyevin son addımı isə bunun əyani sübutu idi. Bu ‚Prezidentin liderlik qabiliyyətini bir daha dünyaya nümayiş etdirmiş oldu".

# Azərbaycan Türk Şurası ölkələri arasında əməkdaşlığın genişlənməsinə töhfələr verir

*Prezident İlham Əliyev: "Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır"*



***"Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində "COVID-19" pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Türk Şurasının videokonfrans vasitəsilə keçirilən fövqəladə Zirvə görüşündə çıxışı zamanı bildirib. Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə Görüşünün əsas məqsədi milli səviyyədə atılan addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birinə dəstək göstərilməsi və xalqlar arasında həmrəyliyin möhkəmləndirilməsidir. Epidemiyanın geniş yayıldığı dünyada iqtisadi münasibətlərin dayandığı bir dövrə təsadüf edən və Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu videokonfrans böyük iqtisadi və siyasi əhəmiyyətə malikdir. "Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir" -deyən Prezident İlham Əliyev pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı olduğunu bildirib.***

Dünyada tüğyan edən koronavirus "COVID-19" infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə, təxirəsalınmaz tədbirlər davam etdirilir. Təbii ki, bununla bağlı dövlətimiz tərəfindən qabaqlayıcı tədbirlər görülüb, çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Dövlət başçısının qeyd etdiyi kimi, məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən tədbirələri diqqətə çəkərək bildirib ki, bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır: "Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir". Görülən tədbirlər əhatəli və şaxəlidir. Belə ki, ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılıb, ictimai istirahət yerlərinə insanların girişi qadağan edilib.

"Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur" deyə diqqətə çatdıran dövlət başçısı bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verildiyini də bildirib.

## "AZƏRBAYCAN PANDEMİYAYA QARŞI GÖRÜLMÜŞ TƏDBİRLƏRƏ GÖRƏ NÜMUNƏVİ ÖLKƏ KİMİ DƏYƏRLƏNDİRİLMİŞDİR"

Vətəndaşların layiqli həyat şəraitinin və təhlükəsizliyinin təmin edilməsi, hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. ÜST ekspertlərinin də qeyd etdikləri kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. "Ümumdünya Səhiyyə Təşkilatının Baş Direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir" - deyən Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynadığını bildirib: "Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində "COVID-19" müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalamışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk".

## ÖLKƏMİZ APARILAN TESTLƏRİN SAYINA GÖRƏ DÜNYADA 30-CU, HƏR MİLYON ƏHALİYƏ GÖRƏ APARILAN TESTLƏRİN SAYINA GÖRƏ 40-CI YERDƏDİR

Bu gün ölkəmizdə Azərbaycan pandemiyanın təsirlərinin azaldılması, az itkilərin olması istiqamətində Prezidentin təşəbbüsü ilə bir çox işlər görülüb. Bildiyimiz kimi, son 16 ildə bir çox sahələrdə olduğu kimi, səhiyyə sistemində də köklü dəyişikliklər olmuşdur. Azərbaycanda 750-dən çox səhiyyə ocağı tikilib və ya tam təmir olunub. Hazırda ölkəmizdə 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alır. Təbii ki, bu günlərdə istifadəyə verilən dünya standartlarına cavab verən "Yeni klinika" da bu xəstəxanalar sırasındır. Eyni zamanda, maska istehsal edən müəssisənin fəaliyyətə başlaması da görülən işlərin davamıdır. "Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir" - deyə Prezident İlham Əliyev bildirib.

Dövlət başçısı çıxışı zamanı həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə dövlət tərəfindən xidmətlərinin yüksək qiymətləndirildiyini, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının 3, 4 və 5 misli məbləğində artırıldığını da bildirib. Bu gün ölkəmizdə 60 minə yaxın test keçirilib və ölkəmiz aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerdədir.

## "SAHİBKARLARA MÜRACİƏT OLUNMUŞDUR Kİ, İŞ YERLƏRİ İXTİSAR EDİLMƏSİN"

Azərbaycan Prezidentinin koronavirusdan əziyyət çəkən vətəndaşları və sahibkarları diqqət mərkəzində saxlayır. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək, makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq istiqamətində də ciddi tədbirlər həyata keçirilib. Bu məqsədlə dövlət tərəfindən 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılıb. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir.

Cənab Prezident koronavirusun ən çox təsir etdiyi sahələrə nəzər salaraq sahibkarlıqla məşğul olan 600 minə yaxın insanın bu vəziyyətdən daha çox əziyyət çəkdiyini bildirib: "Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır".

## "BİZ YALNIZ XOŞ GÜNLƏRDƏ DEYİL, ÇƏTİN GÜNLƏRDƏ DƏ BİR-BİRİMİZİN YANINDAYIQ"

Türk Şurasının fövqəladə Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizəmizdə həmrəyliyi möhkəmləndirməsinə şübhə yoxdur. "Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu, onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır".

Zirvə görüşünün yekununda qəbul edilən yekun Bəyannamə bu əməkdaşlığa əhəmiyyətli töhfədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni Azərbaycan Partiyası və ƏƏSMN-nin əməkdaşları tənha və ahıl vətəndaşlar üçün sosial xidməti davamlı olaraq həyata keçirirlər





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə koronavirusa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması və bütün cəmiyyətimizin dövlətimizin başçısının təşəbbüsünə dəstək verməsi xalqın həmrəyliyinin və dövlətinə inamının ifadəsidir.***

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin çağırışına əsasən, karantin rejimi ilə əlaqədar olaraq yaşı 65-i keçmiş insanlara Yeni Azərbaycan Partiyasının könüllüləri



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial işçiləri ilə birlikdə martın 27-dən tənhalara, ahıl vətəndaşlara yardım paylayır, onlara sosial xidmətlər göstərirlər.

Həmin tarixdən etibarən bu aksiyaya uyğun olaraq Yeni Azərbaycan Partiyasının könüllüləri və ƏƏSMN-nin sosial işçiləri müntəzəm olaraq ahılları ziyarət edir, onları gündəlik lazım olan ərzaq və tibbi vasitələri ilə təmin edirlər. Öz növbəsində tənha, ahıl insanlar göstərilən qayğıya görə, minnətdarlıqlarını ifadə edirlər.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən martın 24-dən aprelin 20-dək ölkədə xüsusi karantin rejimi elan edildiyindən və bu tədbirlər çərçivəsində 65 yaşdan yuxarı şəxslərin evdən çıxması qadağan olunduğundan YAP-ın fəalları və könüllüləri bu qəbildən olan tənha yaşayan sakinlərə yardımlar edir, sosial xidmət göstərirlər.

# Xəzərin dibi ilə Azərbaycan və Türkmənistan arasında fiber-optik kabel xəttinin çəkiləcək

***Azərbaycanla Türkmənistan arasında Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsini nəzərdə tutan dövlətlərarası saziş Azərbaycan tərəfdən təsdiq edilib.***



28 noyabr 2019-cu il tarixdə Türkmənistanın Aşqabad şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili” haqqında dövlətlərarası Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu Azərbaycan parlamenti tərəfindən ratifikasiya edilib və Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyev tərəfindən təsdiq edilib.

Dövlətlərarası sazişə əsasən, Xəzər dənizinin dibi ilə çəkiləcək magistral fiber-optik kabel xəttinin (Transxəzər Fiber Optik kabel xətti) çəkilişi Azərbaycan tərəfdən ölkəni beynəlxalq internet şəbəkəsinə bağlayan magistral internet provayderi AzerTelecom şirkəti, Türkmənistan tərəfdən isə bu ölkənin telekommunikasiya operatoru Türkmentelekom tərəfindən icra ediləcək. Kabel xətti Siyəzən və Türkmənbaşı coğrafi məkanları arasında çəkiləcək.

Ümumi uzunluğu 300 km olacaq magistral kabel xətti 2-4 terabit/s həcmində məlumatların ötürülməsinə imkan verəcək və Avropanın internet mərkəzi Frankfurtla Hindistanın Mumbay şəhərləri arasında Azərbaycandan keçəcək rəqəmsal ipək yolunu (Digital Silk Way) formalaşdıracaq. Magistral xətt Avropadan internet trafikinin məhz Azərbaycan vasitəsilə Türkmənistana, daha sonra isə Özbəkistan, Əfqanıstan, Pakistan və Hindistana ötürülməsinə imkan verəcək.

“AzerTelecom” şirkətinin “Azerbaijan Digital Hub” proqramı çərçivəsində icra edilən və Azərbaycanla Orta Asiya ölkələri arasında Xəzərin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilişini, ümumilikdə isə Avropa ilə Asiya arasında Azərbaycandan keçəcək rəqəmsal ipək yolunun yaradılmasını nəzərdə tutan layihə iki istiqamətdən - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan marşrutlarından ibarətdir. Artıq Azərbaycan və Qazaxıstan arasında uzunluğu 400 km olan Transxəzər Fiber Optik kabel xəttinin (Trans-Caspian Fiber Optic - TCFO) çəkilməsi ilə bağlı operatorlar arasında müqavilə və iki ölkə arasında dövlətlərarası saziş mövcuddur.

“AzerTelecom” Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan “Bakcell” şirkətinin törəmə müəssisəsidir. “AzerTelecom” şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

# Serbiyada koronavirusdan daha 5 ölüm faktı təsdiqlənib

Serbiyada koronavirusdan daha 5 ölüm faktı təsdiqlənərək bu virusdan ölənlərin ümumi sayı 85-ə çatıb. AZƏRTAC xəbər verir ki, hazırda ölkədə 4054 yoluxma halı mövcuddur. Son ölən beş nəfərdən üçü kişi, ikisi qadındır, orta yaş həddi 76-dır. Ölkənin Səhiyyə Nazirliyi son iki sutkada 2646 nəfəri COVID-19 virusuna qarşı yoxlayıb, bunlardan sadəcə 424-də nəticə müsbət olub. Son məlumatlara əsasən 138 xəstə xəstəxanalara yerləşdirilərək süni tənəffüs aparatına qoşulub. Serbiyada ilk yoluxma halı martın 6-da qeydə alınıb.



# “Dünya bir orqanizmdirsə, ermənilər bu orqanizmin vəbasıdır”



“Ermənilər tarixən dünyada saxta oyunlarla məşğul olublar. Qondarma rejimin Dağlıq Qarabağda keçirdiyi seçkilər də bunun bir nümunəsidir. Təbii ki, bütün dünya ölkələri Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğunu təsdiqləyir və beynəlxalq hüquqi sənədlərdə də bu, öz əksini tapıb”. Bunu SİA-ya açıqlamasında “İki Sahil” qəzetinin baş redaktoru, siyasi ekspert Vüqar Rəhimzadə deyib.

Ekspertin sözlərinə görə, keçirilən saxta seçkilərin ikinci turunun aprelin 14-də keçiriləcəyi barədə məlumat yayılıb: “Bu “seçkiləri” tanımayacağı ilə əlaqədar Böyük Britaniyanın Azərbaycandakı səfirliyi də bəyanat yayıb. Şübhəsiz ki, bu “seçkiləri” bütün dünya yenidən tanımadığını bəyan edəcək. Bu oyunlar onların xarakterini və xislətini bir daha ortaya qoyub. Ümumiyyətlə, Ermənistan son dövrlərdə Azərbaycan qarşısında diplomatik uğursuzluqlarını örtbas etmək üçün oyunlar qurub şou göstərməklə məşğuldur. Düşünürəm ki, ATƏT-in Minsk Qrupu, BMT, NATO kimi nüfuzlu beynəlxalq təşkilatlar bir daha bu saxta seçkiləri tanımayacaq və bu “seçkilər” yenidən qınanacaq”.

V.Rəhimzadə vurğulayıb ki, onlar tarixən öz mənfur əməlləri və hiyləgər, riyakar oyunları ilə dünyanı çaşdırmağa çalışıblar: “Erməniləri sağalmaz bir xəstəliyə bənzətmək olar. Hansı ki, o xəstəlik yalnız və yalnız dünyanı narahat etməkdən ibarətdir. Dünya bir orqanizmdirsə, ermənilər bu orqanizmin vəbasıdır”.

# Elektrik enerjisi ilə bağlı yeni qərar necə tətbiq ediləcək?



“Nazirlər Kabinetinin ötən gün açıqladığı qərara uyğun olaraq aprel ayından sonrakı 2 ay müddətində verilən sərfiyyatlar yeni limitlə, yəni 400 kilovat-saat olaraq hesablanacaq”. SİA-nın xəbərinə görə, bunu Azərişıq ASC-nin departament direktoru Qalib Həmidov deyib. Aprel ayının sərfiyyatlarının may ayında oxunacağını deyən qurum rəsmisi söyləyib ki, Nazirlər Kabineti tərəfindən qəbul edilən qərarda da göstərildiyi kimi, aprel ayından sonrakı 2 hesabat dövründə yəni may və iyun ayında verilən bildirişlərdə 400 kv-luq limit nəzərə alınaraq abonentlərə təqdim olunacaq: “ Bununla bağlı heç bir narahatçılığa ehtiyac yoxdur. Sistemimiz artıq buna hazırlanır və biz 400 kv-lıq limitləri may ayının sərfiyyatları oxunduğu zaman həmin limitləri tətbiq edəcəyik”.

Q.Həmidov vurğulayıb ki, hazırda aprel ayında evlərə təqdim olunan sərfiyyatlar mart ayının sərfiyyatları olduğu üçün orada limit tətbiq olunmayıb: “Aprel ayı ərzində sərf olunacaq limitlərdə yeni qərar tətbiq olunacaq. Bu, eyni zamanda may ayında istifadə olunacaq sərfiyyatlara da şamil olunacaq”. Onun sözlərinə görə, müvafiq qərar əvvəlcədən ödənişlə olan və olmayan bütün sayğaclara tətbiq olunacaq: “Kartla ödəniş edən abonentlər də bu məsələdən narahat olmasınlar. Çünki biz aprel ayı ərzində kartlı sayğaclarda istifadə olunan sərfiyyatın dəyəri may ayının əvvəlində 400 kilovatı nəzərə alaraq abonentlərə təqdim edəcəyik”.

# Birdəfəlik vəsait bank filiallarına və poçt şöbələrinə köçürülür



“İşsiz kimi qeydiyyata alınan şəxsə birdəfəlik ödəmə təyin olunduqdan sonra onun üçün birdəfəlik vəsait bank filiallarına və poçt şöbələrinə köçürülür”. SİA xəbər verir ki, bunu açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya Şöbəsinin rəhbəri Fazil Talıbov bildirib.

Onun sözlərinə görə, bu barədə ona qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdiyi telefon nömrəsinə SMS göndərilir: “İşsiz şəxs mesajı aldıqdan sonra evdən çıxmaq üçün müvafiq qaydada icazə alır və mesajda “Azərpoçt” MMC qeyd edildiyi halda istənilən poçt şöbəsinə, bank göstərildiyi halda isə həmin bankın istənilən filialına şəxsiyyət vəsiqəsi ilə müraciət edərək birdəfəlik ödəməni əldə edir”. Xatırladaq ki, aprelin 9-dan etibarən gündəlik olaraq bu ödəmələrin verilməsinə başlanıb və proses hər gün davam edir.

# 5G texnologiyası koronavirusu yaya bilərmi?

***Son ayların ən çox danışılan və müzakirə mövzusuna çevrilən koronavirus pandemiyası hər kəsin diqqət mərkəzindədir. Səhər sübhdən gecə yatana qədər hamını düşündürəm suallar bu gün görəsən virusla bağlı yeni nə olacaq, koronavirusla bağlı daha hansı informasiya əldə edəcəyik kimi suallardır. Ən təhlükəli məqam isə onsuzda bütün dünya insanlarının psixologiyasına müəyyən qədər təsir edən pandemiyadan sui-istifadə edərək yanlış məlumatların yayılmasıdır.***




Bir müddət bundan öncə, koronavirusun olmadığı və ya hansısa güclərin oyun oynadığı, vaxtilə vurulan BSJ vaksinin koronavirusun yayılmasını genişləndirdiyi, müxtəlif dərman pereparatlarının xəstəliyin inkişafına təsir etməsi, virusun bioloji silah olduğu kimi iddialara da rast gəldik. Zaman-zaman bu suallara mütəxəssislərin dili ilə aydınlıq gətirilərək, iddiaların doğru olmadığına da üzə çıxdı. Son günlər isə bu istiqamətdə yayılan iddialardan biri isə 5G texnologiyasının koronavirusu yayması ilə bağlıdır. Bəs görəsən növbəti iddia nə dərəcə həqiqətə uyğundur?

Məsələ ilə bağlı SİA-ya açıqlama verən Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun əməkdaşı Nərgiz Bayramova söyləyib ki, xəbər portallarında, eləcə də çoxlu izləyicisi olan platformalarda, videoçarxlarda bəzi şəxslərin biri 5G texnologiyasının koronavirusu yayması ilə bağlı iddialar çaşqın vəziyyədə olan insanları daha da qorxutdu: "Bu xəbər əsassız olsa da, insanların bəziləri yenə də çaşqınlıq içində qalır. Həmin şəxslər düşünür ki, doğurdanmı 5G texnologiyası koronavirusu yaya bilər?".

Bu istiqamətdə yayılan informasiyanın iki istiqamətdə olduğunu deyən mütəxəssis söyləyib ki, bəziləri 5G texnologiyasının koronavirusu yaydığını, bəziləri isə onun yaydığı radiasiyanın immun sisteminin aşağı düşməsinə və bunun nəticəsində insanların virusa qarşı davamlılığının zəifləməsinə səbəb olduğunu bildirirlər: "Əlbətə ki, bunlar yanlışdır. Buna misal olaraq deyə bilərik ki, bu gün qonşu dövlət olan İran 5G-yə qoşulmayıb. Amma Ümumdünya Səhiyyə Təşkilatının açıqladığı statistikaya baxdıqda həmin ölkədə həm yoluxma, həm də ölüm sayının həddindən artıq çox olduğunu görmək mümkündür. Daha dəqiq desək İran koronavirus yoluxanların sayına görə, dünyada 8-ci yerdədir".

N. Bayramova qeyd edib ki, koronavirus dünyada ilk dəfə deyil ki, müşahidə olunur: "Bilirsiniz ki, bundan əvvəl SARS virusunun yaratdığı digər bir xəstəlik 2002-ci ilin iyul-noyabr ayını əhatə etmişdi. Xüsusilə də Asiya ölkələri bundan daha çox zərər görmüşdü. Həmin dövrdəki 5 G yox idi? Ona görə də bu cür iddialar yanlış və heç bir elmi əsası olmayan iddialardır. Elmi araşdırmalar isə bunun əksini iddia edir. Yəni 5G həyatımıza daxil olduqdan sonra həyatımız daha da asanlaşacaq. Zavodların avtomatlaşdırılması, hər hansı prosesin, əməliyyatın kənardan müdaxilə edilərək idarə olunması ilə əksinə xəstəliklər, insan sağlamlığındakı problemlər azalacaq".

MÜTƏXƏSSİS RƏYİ

***Nailə Məhərrəmova***

# "Bakcell"dən ölkə ərazisində onlayn satış və çatdırılma xidməti: şirkətdən növbəti "evdə qal" çağırışı

***Bakcell şirkəti ölkədə koronavirusa qarşı mübarizə tədbirlərini dəstəkləməyə davam edir. Bütün Azərbaycan vətəndaşlarına dəstək göstərmək məqsədilə icra olunan 360 dərəcə kommunikasiya və tədbirlər planı çərçivəsində Bakcell ölkənin bütün regionlarında onlayn satış və çatdırılma xidmətini təqdim edib.***

Karantin müddətində şirkətin abunəçiləri və Bakcell şəbəkəsinə yeni qoşulmaq istəyənlər dublikat və ya yeni SİM-kartı diler dükanı və müştəri xidməti mərkəzlərinə getmədən sifariş etmək imkanına malikdirlər. Sifariş olunan SİM-kartlar Bakcell şirkətinin diler nümayəndələri tərəfindən müştərilərin ev və ya ofislərinə çatdırılacaq. Qeyd edək ki, Bakı və regionların mərkəzlərində çatdırılma tamamilə pulsuzdur.

Sifarişləri 555 nömrəsinə (Bakcell Əlaqə Mərkəzi) zəng etməklə və ya "Mənim Bakcellim" tətbiqetməsindən istifadə etməklə həyata keçirmək olar.

Qeyd edək ki, yeni xidmətdən Bakı, Gəncə, Sumqayıt, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Bərdə, Yevlax, Samux, Goranboy, Ağcabədi, İmişli, Şirvan, Sabirabad, Göyçay, Şamaxı, İsmayıllı, Ağsu, Şabran, Xaçmaz, Quba, Siyəzən, Qəbələ, Zaqatala, Şəki, Qax, Balakən, Mingəçevir, Ağdaş, Lənkəran, Biləsuvar, Salyan və Naxçıvan MR ərazisində istifadə etmək olar.



Xatırladaq ki, Bakcell ölkədə koronavirusa qarşı mübarizə üzrə həyata keçirilən genişmiqyaslı tədbirləri dəstəkləmək üçün bir sıra mühüm layihələr həyata keçirib. Belə ki, şirkət Koronovirusla Mübarizəyə Dəstək Fonduna 1.5 milyon manat ianə etməklə yanaşı, Azərbaycana süni tənəffüs aparatları, bədən hərarətini məsafədən ölçən xüsusi keçid-buraxılış avadanlıqları, eləcə də koronovirusa yoluxmanı yerindəcə müəyyən etməyə imkan verən 3000 ədəd ekspress-testin gətirilməsi üçün iri həcmdə vəsait ayırıb. Bundan əlavə, Bakcell karantin mərkəzlərində çalışan tibbi heyətə təşəkkürünü ifadə etmək üçün açıqca vasitəsilə mesajlar göndərib və bütün karantin mərkəzlərinin həkimlərinə və müxtəlif karantin mərkəzlərində karantində saxlanılan vətəndaşlarımıza isə ödəmə kartları hədiyyə edib. Bakcell abunəçiləri öz telefonlarının ekranlarında "evdə qal" çağırışını görürlər. 1542 qaynar xətt nömrəsinə zənglər də bütün Bakcell abunəçiləri üçün tamamilə pulsuzdur.

Həmçinin, şirkət abunəçilərinə xüsusilə vacib olmadıqda, Müştəri Xidməti Mərkəzlərinə getmək əvəzinə "Mənim Bakcellim" tətbiqetməsindən istifadəni və ya 555 Əlaqə Mərkəzinə zəng etməyi tövsiyə edib. Bakcell şirkəti həssas əhali qruplarına dəstək göstərmək üçün digər KSM təşəbbüsləri üzərində işləyir.

## Gəncədə ahıl və kimsəsizlər diqqətdə saxlanılır





Gəncə şəhər icra hakimiyyətinin dəstəyi ilə YAP Gəncə şəhər təşkilatının əməkdaşları və könüllü gəncləri "COVİD-19" pandemiyası ilə əlaqədar tətbiq olunan karantin rejimi qaydalarına ciddi əməl edən ahıl və xüsusi qayğıya ehtiyacı olan şəxslərə baş çəkiblər. Qeyd olunan vətəndaşlara YAP Gəncə şəhər təşkilatının təşəbbüsü ilə "Bazarstore" mağazalar şəbəkəsində qablaşdırılan və icərisində gündəlik ərzaq məhsulları olan sovqatlar verilib.

Karantin müddəti başlayandan etibarən Milli Məclisə Gəncədən seçilən deputatları yardım aksiyasında yaxından iştirak edib. Bu kimi vətəndaşları daim diqqətdə saxlayıb, ahıl və kimsəsizlərə maddi yardımla yanaşı mənəvi dayaq olurlar.

Mütəmadi olaraq, həyata keçirilən aksiyanın əsas məqsədi yaş etibarı ilə karantin müddətini evdə keçirən ahıl vətəndaşlara dəstək olmaqdır. Bunun üçün YAP Gəncə şəhər təşkilatının könüllü gəncləri də xüsusi fəallıq nümayiş etdirirlər. Tənha yaşayan ahıl vətəndaşlara qida yardımı ilə yanaşı sosial xidmətlər baxımından da köməklik göstərilir.

Yardım aksiyası karantin müddəti başa çatanadək davam etdiriləcək.

## Könüllülər ahıl insanlara ərzaq yardımı paylayıblar

### YAP Xəzər rayon təşkilatı köməyə ehtiyacı olan aztəminatlı ailələrə sosial xidmətlərini davam etdirir





Dünən Yeni Azərbaycan Partiyasının könüllüləri Xəzər rayonunda yaşayan aztəminatlı, tənha, köməyə ehtiyacı olan yaşlı, ahıl insanlara ərzaq yardımı paylayıblar. Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə tənhalara, ahıllara sosial xidməti davam etdirir.

***Rövşən***

# KORONAVİRUSLA bağlı beynəlxalq aləmdə nələr baş verir?

## ABŞ Çini və ÜST-ü araşdıracaq

***ABŞ Senatı Konqresinin daxili təhlükəsizlik və hökumət məsələləri üzrə komitəsi koronavirus infeksiyasının yaranması və yayılması prosesində Çinin və Ümumdünya Səhiyyə Təşkilatının hansı rol oynamaları ilə bağlı araşdırmalara başlayacaq. Bu haqda komitənin sədri Ron Conson Politico nəşrinə müsahibəsində deyib.***

Senatorun sözlərinə görə, o və həmkarları virusun yaranması və yayılması, eləcə də götürülən ölçülərin öyrənilməsinə başlayacaqlar. Həmçinin Pekinin və ÜST-nın virusun yayılmasının qarşısının alınması üçün göstərdikləri səylərinin də hansı nəticələr verməsi yoxlanılacaq. “Bütün bunlar harada başlayıb? İnfeksiyanın heyvandan insana keçməsinin yeri olubmu? Yoxsa o Çindəki laboratoriyadan sızıb? Çünki orada xoşməramlı məqsədlərlə koronavirusların digər tiplərinə qarşı dərmanlar hazırlanırdı. Biz həm də öyrənməliyik ki, ÜST virusun yaranmasınının gizlədilməsi məsələsində hansı rolu oynayıb”, komitə sədri bildirib.

Onun sözlərinə görə, ABŞ ərazisində virusla mübarizə zamanı individual qorunma və tibbi avadanlıq qıtlığı, infeksiya ilə mübarizədə istifadə edilən dərmanlarla bağlı səbəblər də araşdırılacaq. Araşdırma iştirakçılarından olan senator Rik Skott isə nəşrə deyib ki, onlar kommunist Çinə etibar edə bilməzlər: “Biz həm də öyrəndik ki, ÜST-ə də etibar edə bilmərik, çünki onlar bizə yalan danışıblar”, amerikalı senator bildirib.

### Con Hopkins hansı korrektələri edib?

Con Hopkins universiteti yeni növ koronavirusa yoluxanların sayının dünya üzrə 2 milyondan çox olması ilə bağlı məlumatını korrektə edib. TASS-a istinadən xəbər verilir ki, sonuncu məlumata görə, ümumi infeksiyalıların sayı 1 919 913 nəfəri təşkil edir.

“COVID-19”-dan ölənlərin sayı isə 119 666 nəfərdir. Daha ağır vəziyyət ABŞ-dadır. Orada 581 918 nəfər yoluxana 23 608 ölüm halı düşür.

Bundan öncə universitetin saytında ölkədə koronavirusa yoluxanların sayı 682 619 nəfər göstərilmişdi.

İspaniyada yoluxanların sayı 170 099 nəfər, ölənlərin sayı isə 17 756 nəfər, İtaliyada 159 516 nəfərə 20 465 nəfər ölü sayı düşür. Fransada 137 min, Almaniyada isə 130 min, Böyük Britaniyada isə 89 min yoluxan qeydə alınıb.

Sinqapurdan olan alimlər hesab edirlər ki, koronavirusun ötürülməsinin 70% -i simptomsuz daşıyıcılardan da baş verə bilər. Bu barədə “The Straits Times” yazır.

### “COVID-19” - 50-70% imptomsuzlar virusun yayılmasına səbəb olurlar

“Aparılan araşdırmalar göstərir ki, “COVID-19”-a yoluxan 50%-dən 70 %-dək insanlarda heç bir simptom qeydə alınmır və onlar dörd həftə belə bir vəziyyətdə qalaraq, virusun yayılmasına səbəb olurlar”, infeksiya xəstəlikləri üzrə mütəxəssis Lion Noe Nam deyib. Nəşr mütəxəssisinin sözlərinə istinadən qeyd edir ki, hətta simptomsuz daşıyıcılar sonda ağır xəstəlik keçirməsələr belə, onlar immunitetləşirlər və bunun üçün bir neçə il keçməlidir.

İnfeksiya xəstəlikləri üzrə Milli Mərkəzin icraçı direktoru Leo İ Sin hesab edir ki, simptomsuz daşıyıcıların virusu ötürmələri koronavirusla mübarizədə əsas çağırışlardandır. Onun sözlərinə görə, simptomun olmaması, ya da aldadıcı simptom daşıyıcıları sağlamlıqlarından xəbərsiz halda həyat fəaliyyətlərini davam edir və infeksiyanın yayılmasının təhlükəsizliyini dərk etmirlər.

Sinqapurun İnfeksiya xəstəliklərinin öyrənilməsi üzrə proqram rəhbəri Syuy Li Yan isə qeyd edib ki, belə daşıyıcıları müəyyən etmək çox çətindir, ancaq onlar mövcuddurlar. Onun fikrincə, aparılmış kütləvi testlər - xüsusilə Almaniyanın, İslandiyanın, Koreya Respublikasının və Çinin bir hissəsinin səyahət laynerlərində əldə edilən nəticələr belə bir rəyə gəlməyə əsas verir, təsdiq edir.

Qeyd edək ki, bu günə olan məlumata görə, Sinqapurda koronavirusa yoluxanların sayı 2,9 mini keçib, onlardan 9 nəfəri ölüb.



### Çexiya icazə verdi - ölkəni tərk etməyə

Çexiya vətəndaşlarına üzrlü səbəbdən ölkə ərazisini tərk etmək icazəsi verilib. Bu icazə iş çərçivəsində, qohumların ziyarəti və ya həkimə getməklə bağlı ola bilər. Lakin respublikada “COVID-19” təhlükəsi ilə bağlı bütünlüklə giriş-çıxışlar qapalıdır. Belə ki, sərhədlərin bütün məntəqələrində polis əməkdaşları və hərbçilər xidmət aparmaqdadırlar. SİA ria.ru-ya istinadən xəbər verir ki, bu barədə Çexiya DİN-i məlumat yayıb. Lakin icazələrlə bağlı digər qaydalar da tətbiq olunur.

“Çexiyaya geri dönən vətəndaşlar 14 günlük karantin müddətini keçməlidirlər. Mövcud qaydalar ölkə xaricinə qısa müddətli səfər edənlərə aid deyil. Karantinə ölkə hüdudlarını tərk edən tibb işçiləri də əməl etməyə bilərlər. Respublikaya xarici vətəndaşların daxil olmasını qadağan edən qanun isə qüvvədə qalmaqdadır”, məlumatda bildirilir.







### Serbiyalı qız bir gündə nənəsini və anasını itirdi

25 yaşlı serbiyalı tələbə Andjela Kostiç stomatoloq təhsili alır. Onun anasını və nənəsini koronavirus simptomu ilə xəstəxanaya yerləşdiriblər.

“Nənəmin vəziyyəti ağır idi, anamda isə yaxşı proqnozlar var idi”, deyə Andjela bildirib. Onun sözlərinə görə, anası xəstəxanada 12 gün keçirib. Yoluxana qədər isə sağlamlığı normal olmaqla yanaşı, xroniki xəstəliyi də olmayıb.

Andjela ən pisindən ehtiyat edirdi və o da başına gəlib. Belə ki, onun nənəsini və anasını ciyərlərini oksigenlə təmin etmək məqsədi ilə süni nəfəs cihazına qoşublar. Aprelin 5-də isə nənəsi həyatını itirib, anası da həmin günün axşamı vəfat edib.

Qızcığaz tənha qalıb. Andjelanın atası da stomatoloq olub və üç il əvvəl dünyasını dəyişib.

Hazırda Andjela nənəsinin və anasının dəfni üçün pul toplayır. O deyib ki, bu məsələdə atasının dostları yardım edirlər. “Hər kəs mənə deyir ki, güclü olmaq lazımdır”, deyə o bildirib.

***Rövşən RƏSULOV***

# Hətta ermənilər belə, “DQR”dəki “seçkilərə” barmaqarası baxırlar

## *<u>Zoqrab Mnatsakanyan:</u> “Qarabağın gələcəyi Qarabağ olmadan həll olunmayacaq”*

***Azərbaycanın işğal altındakı ərazilərində - qondarma “DQR”də keçirilən “təkrar parlament və prezident” seçkilərinin “nəticələri” növbəti dəfə dünya birliyi tərəfindən tanınmamaqla yanaşı, elə ermənilərin siyasi-icitmai rəyi tərəfindən də tanınmamaqdadır. Ümumiyyətlə, bu “seçkilərin” oyun olduğunu dərk edən ermənilər müxtəlif fikirlərini bildirməklə, həmin oyunbazlığın gələcək üçün heç bir məna kəsb etmədiyini bəyan edirlər.***

### Ermənistanın hakim dairələrinin belə, bu məsələdə ortaq mövqeləri yoxdur və dolayısı ilə həmin “nəticələri” tanımırlar






“Dağlıq Qarabağın gələcəyi Qarabağ olmadan həll olunmayacaq. Bunun üçün Dağlıq Qarabağ səlahiyyətlilərinin uyğun bir mandatı olmalıdır”. Bu fikirlərlə Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan işğal altında olan Dağlıq Qarabağda keçirilən saxta “seçkilər” və ona olan beynəlxalq reaksiyanı şərh edərkən səsləndirib. Daha dəqiq desək, dünya birliyinin “nəticələri” rədd etməsi sübut edir ki, hətta ermənilərin, daha dəqiq desək, Ermənistanın hakim dairələrinin belə, bu məsələdə ortaq mövqeləri yoxdur və dolayısı ilə həmin “nəticələri” tanımırlar. Ən azından, fakt budur ki, bu gün işğalçılıq siyasəti yürüdən Ermənistan “DQR”i dövlət kimi tanımır.

Onu da xatırladaq ki, Z.Mnatsakanyan bu sözləri erməni müxbirin Rusiyanın və Avropa İttifaqının Dağlıq Qarabağdakı “seçkilər”i və qondarma rejimin müstəqilliyini tanımadıqları barədə bəyanatlarına münasibətini öyrənərkən deyib.

### <u>Erməni nazir:</u> “Qarabağ səlahiyyətlilərinin “seçkidə” alınan müvafiq bir mandatı olmalıdır”

Digər tərəfdən, Mnatsakanyanın fikirlərinin davamı Ermənistanın Dağlıq Qarabağ məsələsinə yanaşmasının əsl mahiyyəti baxımından diqqət çəkir: “Biz bununla bağlı qiymətləndirmələrlə tanışıq və bu, ardıcıl xarakter daşıyır. Lakin sülh prosesinin normal davamı bizim üçün son dərəcə vacibdir və biz buna daha çox diqqət yetiririk. Bundan əlavə, bizim mövqeyimizdə Dağlıq Qarabağın sülh prosesində subyekt kimi tanınması və rolunu vurğulamaq daha vacibdir. Qarabağ olmadan Qarabağın gələcəyinə qərar verilməyəcəyi başa düşülməlidir. Bunun üçün Qarabağ səlahiyyətlilərinin “seçkidə” alınan müvafiq bir mandatı olmalıdır”.

Başqa yandan, Ermənistan XİN-nin rəhbəri beynəlxalq aləmin verdikləri bəyanatları qulaqardına vurmaqla, əslində bir daha sübut edir ki, onlar işğalçılıq siyasətinin tərkib hissəsində yer almaqla yanaşı, dünya ölkələrinin çağırışlarına məhəl qoymurlar. “Verilən bəyanatlarda yeni heç nə deyilmədi”, bildirən Mnatsakanyan erməni həyasızlığını sərgiləməklə yanaşı, həmçinin Qarabağın müqəddəratının yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağını da dərk edir. Çox yəqin ki, bu cür qarmaqarışıq cavabları ilə özünü dalana dirəmiş olur. Ancaq fakt budur ki, bəlkə də onun özü də bilmədən, belə bir saxta, qondarma “seçkilərin” nəticələrini tanımadığını bildirir.

***Rövşən NURƏDDİNOĞLU***

## “İrəvan danışıqların uzadılmasına çalışacaq”



***“Ermənistan koronovirus epidemiyasına baxmayaraq Azərbaycanın işğal olunmuş ərazilərində separatçı rejimin ikinci tur “seçki”lərini keçirir. Araik Artunyan və Masis Maliyan arasında keçirilən “seçki”nin məqsədi Paşinyanın orada nəzarəti öz üzərinə götürməsi, bunula da Serj Sarkisyan və Robert Koçaryan siyasi sistemini siyasət mərkəzindən təcrid edilməsidir. Çünki, hər iki şəxs Paşinyana yaxındır”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.***

O bildirib ki, Paşinyan separatçı rejimə nəzarəti əldə etməsi nəticəsində sepa-
ratçıların digər üzvülərinə qarşı cinayət işi qaldırılacaq və onlar həbs ediləcəklər.
Qondarma qurumda keçirilən “seçki”lər legitim olmadığını deyən politoloq söyləyib ki, bu Ermə-
nistan siyasi səhnəsində yerini möhkəmləndirmək üçün klanların savaş meydanıdır: “Onlar Qara-
bağ kartında istifadə edərək siyasi hakimiyyət uğrunda mübarizə aparırlar. Ümumiyyətlə, qondar-
ma rejimin rəhbərliyini Ermənistan hakimiyyəti müəyyən edir və Paşinyan da buradakı rəhbəriliyi
ələ alır. Belə olan halda, Azərbaycanla aparılacaq danışıqlarda artıq Paşinyan üçün əlavə bəhanə
predmeti olmayacaq. Çünki, ona qarşı gələn “Qarabağ klanı”nı oradan uzaqlaşdırır”. M. Əsədulla-
zadı qeyd edib ki, əgər, Paşinyan danışıqlara getməsə, Azərbaycan tərəfinin artıq Paşinyana vaxt
tanıması mümkün deyil: “İrəvan danışıqların uzadılmasına çalışacaq. Lakin Azərbaycan konkret
olaraq hərəkətə keçməlidir”.
Politoloq əlavə edib ki, Azərbaycan Silahlı Qüvvələrinin təlimləri Ermənistan üçün mesajdır:
“Bir neçə gün bundan əvvəl Rusiyanın XİN rəhbəri Sergey Lavrovla Ermənistan XİN rəhbəri Z.
Mnatsakayanla telefon danışığı, ardınca Azərbaycan XİN rəhbəri ilə telefon əlaqəsi Rusiyanın ye-
ni planından xəbər verir. Rusiya Azərbaycan və Ermənistan arasında birbaşa danışıqların aparıl-
masında maraqlı deyil”.



**Təhmasib Novruzov**

# Göydə Allah, yerdə padşah

***Min dəfələrlə demişəm, yenə deyirəm və deməkdən də usanmıram. Bizim atalar sözlərimizi diqqətlə oxuyub idrakla dərk eləyən insana nə Aristoteli oxumağa ehtiyacı var, nə Qabusnamə”ni, nə də İmanuel Kantı! Bu millət tarix boyu baş verənləri həyat süzgəcindən keçirərək çox yığcam formada hər bir olmuşlar və olacaqlara dair elə kəlamlar ortaya qoyub ki, onları oxuyub dərk edən hər kəs həyat fəlsəfəsini bütün çalarları ilə özü üçün müəyyən edə bilər.***

Yazıya başlıq seçdiyim bu kəlamı da atalarımız deyib, qoyub gedib. Bəzən bunu elə izah edənlər olur ki, guya atalarımız deyib ki, necə allaha sitayiş edirsənsə, elə də padşaha (İndiki zamanımızda Prezidentə) sitayiş elə. Çox deyimləri belə yanlış anladığımızdan onun mahiyyətinə vara bilmir və bətnindəki fəlsəfəni anlamadan bunu atalarımızın yanlışı (Əstəğfurullah!) kimi bağıranlar da olur. Nə etməli, cəmiyyət inqubator sexi deyil ki, hamı eyni formada , eyni məzmunda ola! Bu, yer üzünün əşrəfi olan insanın cəmiyyətidi və orda hər cür düşünən də olacaq, hər cür yaşam yolu seçənlər də. Xülasə, yenə deyəcəklər fəlsəfə açdı. Odur ki, qayıdaq mətləbin ortasına. Bu kəlamla atalar onu deyib ki, hər toplumu, hər cəmiyyəti idarə edəni saymalı, ona inanmalı, onun dediklərinə əməl etməli və yolunu saxlamalı, hörmət və sayğını əskik etməməlisən. Bu fəlsəfəni anlatmaq üçün ona yardımçı bir kəlamı da deyib atalarımız: allahsız yerdə otur, böyüksüz yerdə oturma! Sizcə atalarımız bununla bizləri allahsızlığa dəvət ediblər? Qətiyyən. Sadəcə Allahını sev, ona inan, amma onun da ən şox istədiyi yaratdığı yer kürəsində bütün məxluqat arasında düzənin olmasıdır ki, bu düzəni də quran və idarə edən böyüklərdi. Böyüklər ailədən, bir nəsildən başlamış, indiki zamanımızda bir kəndə, bir bölgəyə, bir ölkəyə qədər bütün toplumları idarə edənlərdir ki, yerdə bu idarəçiliyin toplumlarda pozulması, həmin cəmiyyəti, bu geniş vüsət alanda isə ümumən planetimizi təhlükələrə istiqamətləndirir. Ona görə də, hər kəs evdə evin rəisini (bizim mentalitetə uyğun olaraq atanı), obada hər kəsin seçdiyi və vəkil etdiyi nümayəndəni, cəmiyyətdə isə ölkəni idarə edəni,keçmişdə padşah, sultan, xan və s., indidə isə Prezident dediyimiz nümayəndəni gərəkdir ki, eşidək, dediklərini qəbul edək və ona inanaq. Əks-təqdirdə, aşağıdan yuxarı elə bir özbaşınalıq yaranar ki, bunun altından çıxmaq üçün (o da çıxa bilsək, hər zaman Ulu Öndər Heydər Əliyev olmayacaq ki, dağılmış cəmiyyətə sahib çıxıb onu yoluna qoysun). Şükür allaha ki, indi demokratiya deyilən bir idarəçilik mövcuddur və taleyini həll edəcək liderini də, aşağıdan yuxarı insanlar özləri seçirlər. Yəni, toplumun əksəriyyəti kimi istəyirsə, o da olur lider (Yəni keçmiş zamanlarda padşah, indiki zamanımızda Prezident!). Bu yerdə bir məqama da aydınlıq gətirmək yerinə düşər, məncə. Müqəddəs söz kimi qəbul elədiyimiz “PEYĞƏMBƏR” kəlməsinin hərfi mənası “GÖNDƏRİLMİŞ” deməkdir. “Peyğəm” ərəbcə göndəriş deməkdir və həmin müqəddəs kəlmə də bu sözdən yaranıb. Sadəcə bizlər bu sözü müqəddəslər haqqında işlətdiyimizə görə, onun ifadəsi bir qədər fərqlənib. Eyni zamanda, dini kitablarda da yazılır ki, allah yer üzünə Həzrəti Məhəmmədə (S.Ə.) qədər 124000 min peyğəmbər göndərib. Məğzinə varmırıq ki, bu qədər peyğəmbərlər yer üzünə nə vaxt gəlib, necə gəlib ki, insanlar bundan xəbərsiz olub? Mən bunun cavabını tapmışam. Yer üzünə düzən gətirən, toplumları idarə edən, bəşəriyyətin inkişafında tarixi rol oynayan insanların hər biri Allahın sevdiyi toplumlara göndərdiyi şəxsiyyətlərdir ki, onlara da peyğənbər deyilib. Bu mənada, bir millətin taleyində əvəzsiz rol oynayan, onu bəlalar girdabından xilas edib, dünyanın inkişaf düzəninə çıxaran, cəmiyyəti ilbəil irəli apara bilən hər bir lider Allahın göndərdiyi liderdir. Oxucum məni düzgün anlasın. Mən kiminsə peyğəmbər kimi qəbul edilməsini iddia etmirəm. Ancaq xalqını, mənsub olduğu milləti xaosdan çıxarıb da inkişafına təməl qoyan və bu təməl üzərində millətinin tarixində ən böyük tərəqqi dövrünü reallaşdıran lider, şəksizdi ki, ulu tanrıdan güc alır. Belə də, Ulu Öndər Heydər Əliyev dediyi kimi, bir kəsi Allah qoruyursa və yüksəldirsə, bəndə kim ki, onun qarşısını kəsə bilsin? Bütün bu uzun-uzadı dediklərimin tək bir yekun mənası var. Bu gün xaricdə oturub, millətimizin seçdiyi, etibar elədiyi liderə şər, böhtan yağdırırlar. Son vaxtlar isə hədlərini o qədər aşıblar ki, təhqirdən, söyüşdən də gen-bol istifadə edirlər. Erməni qucağında oturub, bu ikiayaqlı məxluqları da qucağına alıb məqsədli kompaniya aparan Leyla Yunusun da, onun üzdəniraq “qəhramanları”nın da ölkə içində yaxınları, qohum-əqrabaları yox deyil. Allahın bizlərə bəxşi olan və ölkəni qan axan, od püskürən bir regionda sabitlik adasına çevirən, cəmi 16 ildə başqa ölkələrin yüz ilə qət edə bilmədiyi yolu ustalıqla keçərək millətini irəli aparan, bütöv bir ölkəni ilan kimi soyub yenidən quran, nəhayət nə az, nə çox, dörd dəfə xalqın mütləq əksəriyyətinin səsi ilə etimad göstərilən liderimizin nüfuzuna, şəxsiyyətinə xələl gətirən belə çıxışlara sözümüzü deməyin vaxtı çatıb. Kiminsə ölkədəki problemlərlə bağlı tənqid səsləndirməsinə kimsənin də etirazı yoxdur və ola da bilməz. Ancaq tənqid etməyə fakt tapmayıb ölkə başçısını, onun yaxınlarını, komandasını təhqirə tuş qoyan hər kəsə, cəmiyyət və millət olaraq yerini göstərməliyik. Bunu etməsək, əksinə, bəzən içimizdən də belələrinin əlinə qıl uzatsaq, o zaman cəmiyyətin düzəni təhlükəyə tuş gələr. Ən azı ulu tanrı bizləri əfv etməz. Çünki hər bir lider onun göndərişi və xalqın seçimi ilə lider olur. Tanrının göndərdiyi və toplumun seçdiyi liderlərə hörmətsizlik isə tanrıya və topluma hörmətsizlikdir. Kim qəbul edirsə, özü bilər, amma mən bunu yeyə bilmirəm və içimdə odlanram. Allah sizi də bu mənada odlandırsın. Odlandırsın ki, bu gedişin millətə koronavirusdan da böyük bəla gətirəcəyini anlayasınız. Anlayasınız ki, nəticəni dəyişmək üçün indidən haqqın yolunu tuta və bu yolla irəliləyə biləsiniz. Tanrı bu yolda millətimizə yar və yardımçı olsun.

AMİN! AMİN! AMİN!

# DSX müsabiqə elan edir




***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti "Müqəddəs Sərhədlərimizin keşiyində" mövzusunda yaradıcılıq müsabiqələri elan edir. SİA həmin müsabiqənin şərtlərini təqdim edir: Müsabiqənin keçirilməsində əsas məqsəd gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, cəmiyyətimiz üçün sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların Vətənimizin müqəddəs sərhədlərinə hörmət ruhunda tərbiyə olunması, sərhədçi peşəsinə marağın artırılması, sərhəd xidmətinin xüsusiyyətlərinin və əhəmiyyətinin ictimaiyyətə çatdırılması, sərhədlərimizin mühafizəsi sahəsində əcdadlarımızdan miras qalmış milli-mənəvi dəyərlərin, ənənələrin yaşadılmasıdır.***

Müsabiqə "Müqəddəs sərhədlərimizin keşiyində" mövzusunu özündə əks etdirən mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma işləmələri), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi və inşa yazısı nominasiyaları üzrə keçirilir.

Müsabiqənin şərtləri:

1. Müsabiqədə mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma üsulu ilə işləmələr), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi nominasiyaları üzrə yaşından asılı olmayaraq bütün yaradıcı şəxslər, inşa yazısı nominasiyasında isə sərhədyanı rayonların orta məktəblərinin şagirdləri iştirak edə bilərlər.

2. Mahnı, dekorativ-tətbiqi sənət, təsviri sənət, bədii ədəbiyyat və qəzet məqaləsi üzrə təqdim olunan işlər üzərində müəllif barədə məlumatlar göstərilmir. Həmin məlumatlar anketdə əks etdirilir (anketin forması qaydaya əlavə olunur) və zərfə qoyulur. Əl işlərinin arxasında və zərfin üzərində şərti ad qeyd olunur və aşağıdakı qaydada təqdim olunur:

2.1. şeir, hekayə və qəzet məqaləsi nominasiyalarında iştirak edənlər yazılarını çap elektron formada (CD diskdə, Arial 12 şriftlə);

2.2. mahnı müsabiqəsi nominasiyasında iştirak edənlər musiqi əsərlərinin sözlərini və notlarını yazılı formada, tam mətnli musiqisini isə DVD diskdə;

2.3. dekorativ-tətbiqi sənət üzrə təqdim edilən əl işlərinin ölçüləri 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.4. rəngkarlıq üzrə əsərlər kətan parça üzərində çəkilməli və çərçivəyə salınmalı, 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.5. inşa yazısı 12 vərəqli dəftərdə, göy rəngli qələmlə yazılmalı, dəftərin üz hissəsində şagird haqqında məlumat (şagirdin soyadı, adı və atasının adı, rayon və məktəb haqqında məlumat və əlaqə telefonu) qeyd olunmalıdır. Müsabiqənin keçirilməsi və qiymətləndirilməsi üçün hərbi hissələrdə rayon təhsil şöbələri ilə birgə xüsusi komissiyalar yaradılır. Komissiyalar 3 (üç) ən yaxşı inşa yazısını qiymətləndirir.

3. Müsabiqəyə təqdim edilən bütün əsərlər və əl işləri müvafiq qaydada doldurulmuş anketlə birlikdə 2020-ci il iyun ayının 30-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edilməlidir (Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30).

4. Təqdim olunan bütün əsərlərdə (əl işlərində) Azərbaycan Sərhəd Mühafizəsi tərənnüm edilməli, əsərlər (əl işləri) müsabiqəyədək heç bir yerdə çap, nəşr və yaxud nümayiş etdirilməməlidir.

5. Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya yaradılır, komissiya hər nominasiya üzrə 3 (üç) ən yaxşı əsəri seçir, qalibləri müəyyən edir.

6. Müsabiqənin nəticələri Azərbaycan Sərhəd Mühafizəsinin 101-ci ildönümü ərəfəsində elan ediləcəkdir.

7. Müsabiqə ilə bağlı yaranmış suallarla iştirakçılar hərbi hissələrin şəxsi heyət üzrə şöbələrinə və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə müraciət edə bilərlər (012-498-01-29; 012-498-01-55).

**Müsabiqə qalibləri üçün aşağıdakı mükafatlar təsis olunur:**
**Mahnı müsabiqəsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dekorativ-tətbiqi sənət üzrə:**
**Bədii tikmə və toxuma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dəmir (əlvan metal) üzərində döymələr**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Taxta üzərində oyma və yandırma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Təsviri sənət üzrə:**
**Rəngkarlıq**
I yer - 1-ci dərəcəli diplom və 700 (yeddi yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 600 (altı yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı.

**Bədii ədəbiyyat üzrə:**
**Şeir**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Hekayə**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Qəzet məqaləsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**İnşa yazısı üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

Müsabiqə iştirakçısının anketi (nümunə)

______________________________________________
(soyadı, adı, atasının adı)
Doğum tarixi (gün, ay, il) və yeri ______________________
Təhsili ______________________________________
İş yeri, vəzifəsi ______________________________
Ünvan, telefon (ev, iş, mobil) __________________
Müsabiqəyə təqdim olunan işlər
1. ____________________________________________
2. ____________________________________________
(əsərin adı)
İşi təhvil verdi: ______________________________
İşi təhvil aldı: _______________________________

## Bakıda və Sumqayıtda oğurluq edənlər tutulublar



***Bakıda və Sumqayıtda oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aprelin 12-də Suraxanı rayonunun Hövsan qəsəbəsində mənzil istismar sahəsinə məxsus istixanadan 1000 manat dəyərində su mühərriki və vintil oğurlamağa cəhd göstərən qəsəbə sakinləri Z.Zamanov və qardaşı rayon mühafizə idarəsinin əməkdaşları tərəfindən saxlanılaraq 30-cu polis şöbəsinə təhvil veriliblər.***

Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhərdəki evlərin birindən 820 manat pul, bir ədəd noutbuk və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Sumqayıt sakini, əvvəllər məhkum olunmuş F.Paşayev yaxalanıb. Hər iki faktla bağlı araşdırmalar aparılır.

## Bərdə sakinini bıçaqla yaralayan şəxs saxlanılıb



Cari il yanvarın 6-da gecə saat 3 radələrində Bərdə rayon sakini Kamil Əhmədovun kəsilmiş-deşilmiş yaralarla Rayon Mərkəzi Xəstəxanasına gətirilməsi barədə Polis Şöbəsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məlumatla əlaqədar Bərdə Rayon Polis Şöbəsində dərhal əməliyyat-istintaq qrupu yaradılıb, araşdırmalara başlanılıb. Araşdırmalarla müəyyən edilib ki, şəxsiyyəti istintaqa məlum olmayan şəxs K.Əhmədovun idarə etdiyi "VAZ-2106" markalı avtomobilə sərnişin qismində oturub, Lənbəran kəndinə gəlib və orada zərərçəkmişin bədən nahiyələrinə qəsdən 3 bıçaq zərbəsi endirərək ağır bədən xəsarətləri yetirib, avtomaşını isə kənd ərazisindəki kanala atıb. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə cinayət əməlini törətməkdə şübhəli bilinən Bərdə rayon Lənbəran kəndində yaşayan Rəşad Mirzəyev saxlanılıb. Cinayət əməli olan bir ədəd bıçaq maddi sübut kimi götürülərək istintaqa təhvil verilib. Dindirilmə zamanı R. Mirzəyev hadisəni şəxsi münasibətlər zəminində yaranmış mübahisə zamanı törətdiyini etiraf edib. Faktla bağlı Bərdə Rayon Polis Şöbəsində araşdırmalar davam etdirilir.

## Şəmkirdə baş verən yol qəzasında iki nəfər ölüb

Daxili İşlər Nazirliyi (DİN) Şəmkirdə baş verən ağır yol-nəqliyyat hadisəsi ilə bağlı məlumat yayıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Şəmkir rayonunun Sarıtəpə kəndi ərazisində şəhər sakini Xəqani Abbasovun idarə etdiyi "VAZ-21214" markalı minik və Tovuz rayon sakini K.Hüseynzadənin idarə etdiyi "DAF" markalı yük avtomobili toqquşub. Nəticədə X.Abbasov və sərnişini Eyvaz Vəliyev hadisə yerində ölüblər. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.



# Müxalifət gülünc ambisiyaların girovundadır

***Zaman keçdikcə, siyasi məkanda qərar tutmuş dağıdıcı müxalif qüvvələr müəyyən dəyişikliklərə uğrayırlar. Yəni daha çox işverən, xəyanətkar mövqeləri ilə seçilən qurumlara çevrilirlər.***

*Mövcud reallıqlar təsdiq edir ki, Azərbaycan cəmiyyətində radikal müxalifətə yer yoxdur*



Əksər müxalif partiyaları inkişaf proseslərindən kənarda qalmaqla, parçalanıb, siyasi mübarizədə ardıcıl məğlubiyyətlərə düçar olaraq, sivil mübarizə dəyərlərindən uzaq düşüblər. Bu kimi amillər səbəbindən, müxalifət düşərgəsində yer almış qüvvələrin birlik modellərinin həyata vəsiqə ala bilməməsi, yanlış siyasi taktika və strategiya əsasında baş verib. Azərbaycan müxalifətinin uğur qazanmamasının səbəbləri kimi, həmçinin, onun xalqın etimadına və dəstəyinə deyil, birbaşa olaraq, xarici siyasi-maddi köməkliyə arxalanmasını da göstərmək olar. Radikal müxalifətin hər dəfə seçki proseslərindən məğlub ayrılmasının və xalq tərəfindən dəstəklənməməsinin, həmçinin, xarici qüvvələrin "xeyir-duasının" olmasına baxmayaraq, uğur qazana bilməməsinin səbəblərini onların yanlış və səhv siyasət aparmaları ilə əlaqələndirmək olar. Olub ki, partiya sədri xaricdəki havadarlarının dəstəyinə arxalanaraq, düşərgə daxilində meydan sulayıb, sonradan isə miskin durumla üzləşib. 1998-ci il prezident seçkiləri ərəfəsi AMİP lideri Etibar Məmmədov az qala müxalifətin "xaç atasına" çevrilmişdir. Ancaq rüsvayçı seçki məğlubiyyəti E.Məmmədovu müxalifətin "bomj"u səviyyəsinə enməsinə gətirib çıxardı. Eyni aqibətlə Müsavatın keçmiş başqanı İsa Qəmbər, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli və digərləri də növbəti prezident seçkilərindən sonra üzləşmişlər.

### Müxalifət işlək alətə çevrilib

Çox maraqlıdır ki, çirkab içərisində olan müxalifət liderləri təsir dairələrində olan mətbu orqanların yazarlarını da güdaza verirlər. Düşünmək olar ki, anormal mövqe tutmaqdan müxalifət partiyaları və onların qəzet yazarları zaman keçdikcə imtina edəcəklər. Lakin Ə.Kərimlinin təsiri altında olan saytlar və trolları öz bəd əməllərini davam etdirməklə çox ciddi təpki altında olduqlarını nümayiş etdirirlər. Fikir versəniz görmək olar ki, xaricdə oturub, sosial şəbəkələrdə söyüş söyən, insanları təhqir edən şəxslərin böyük əksəriyyəti vaxtı ilə Azərbaycanda cinayət törədərək ölkədən qaçanlardır. Misal kimi qondarma vəkil Qurban Məmmədovu, AXCP fəalı Bəxtiyar Məmmədovu, rəsmən dəli olduğu təsdiqlənən Vidadi İsgəndərlini, qondarma jurnalist təşkilatlarından hesab edilən "Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutu"nun rəhbəri Emin Hüseynovu və digərlərini göstərmək olar. E.Hüseynovun daha çox özünü həyasızlığa qoyduğunu demək olar. Çünki bu üzdəniraq şəxs vergi cinayətlərinə görə, həbs olunacağını anladığından xaricə qaçdıqdan sonra, sosial şəbəkələrdə ölkəmizə qarşı geniş şəkildə qarayaxma kampaniyasına başlayıb.

### Onların adları üstlərindədir - satanlar və satılanlar

Demək olar ki, hər gün onun sosial şəbəkələrdə sayıqlamalarına, iyrənc iddialarına rast gəlmək olar. Xatırlatmaq yerinə düşərdi ki, Azərbaycanda olarkən E.Hüseynov Kuba Sosialist İnqilabının liderlərindən olan Çe Gevaranın bir qrup fanatı ilə "Alaturka" restoranında Azərbaycan qanunlarına zidd olan toplantının iştirakçısı olmuşdur. Həmin toplantıda E.Hüseynov Avropanın dini təriqətləri ilə əlaqələr qurub, Çe Gevaranın təbliğatının aparılmasının vacibliyi barədə fikirlər səsləndirib. E.Hüseynov lazım gələrsə "PKK" ilə əlaqələr qurmağa cəhdlərin də göstərilməsini təklif edib. Amma krişnaçı Dodi Kramnikin E.Hüseynovun "PKK" ilə əlaqələr qurmaq təklifindən razı qalmayıb. D.Kramnikin E.Hüseynovu 5-3 manata aldanaraq, qrupun qəbul etdiyi prinsiplərə arxa çevirməkdə günahlandırıb. Məlumatlı mənbəmizin dediyinə görə, D.Kramniklə E.Hüseynov arasında yaranan mübahisə sonda yumruq davasına çevrilib. Məsələyə dözümsüz yanaşan "Alaturka" restoranının rəhbərliyi hüquq-mühafizə orqanlarına müraciət etmək məcburiyyətində qalıb. Hadisə yerinə gələn polis əməkdaşları onları sakitləşdirməyə müvəffəq olub. Bu əməlinə və rəhbərlik etdiyi təşkilatın vergi cinayətləri ilə bağlı istintaq araşdırmaları apardığı vaxtlar E.Hüseynov ölkədən qaçmışdır. İndi də Norveçdə oturub, Azərbaycan dövləti və xalqı haqqında Ə.Kərimlinin tezislərinə uyğun sərsəmləmələr yayır.

Bir sözlə, dağıdıcı müxalifət partiyaları və onların xaricdəki trolları cəmiyyətə yararlı siyasi qüvvə olmaq əvəzinə, dövlətə qarşı çevrilmiş siyasi alət rolunu alıblar. Yəni, bu anlaqsız vəziyyətdə olan başıpozuq qüvvələr Azərbaycanın əleyhinə çevrilmiş, qərəzli dairələrin ölkəmizə qarşı istənilən zaman istifadə edə biləcəyi təzyiq alətinə çevriliblər. Bu, əlbəttə ki, nəzəri fikir deyil, təcrübədə özünün mənfi əksini tapmış reallıqdır. Bu baxımdan da istər xaricdə, istərsə də daxildə olan müxaliflər və onların trolları arzu etdikləri məqamı əldə edə bilməyəcəklər. Çünki onların adları üstlərindədir - satanlar və satılanlar.

**İ.ƏLİYEV**

# Tahir Kərimli: "Hansı dövlətin müxalifəti, başqa dövlətin adamlarını öz dövlətinə qarşı mübarizəyə çağırır?"

***Son vaxtlar AXCP sədri Əli Kərimli və trolları Azərbaycanda xalqını sevən, dövlətinə bağlı olan şəxsləri və dövlətçilik maraqlarını daha geniş şəkildə təhqir etməyə başlayıblar. Koronavirus epidemiyasının geniş fürsət aldığı belə bir ağır, çətin məqamda Ə.Kərimlinin və trollarının bu cür təhqiredici şər və böhtan xarakterli metodlardan istifadə etmələri onların xarici maraqlı dairələrdən sərt tapşırıqlar aldıqlarını göstərir.***



Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın koronavirusla bağlı xalqa müraciətləri və gördükləri qabaqlayıcı tədbirlər müəyyən effekt verməyə başlayıb ki, bu da Azərbaycanın koronavirusla mübarizədə Ümumi Dünya Səhiyyə Təşkilatının qeyd etdiyi kimi, müvəffəqiyyətə nail olur: "Hazırda Azərbaycanda koronavirusun geniş fürsət alınmasının qarşısı ciddi şəkildə alınır. Hətta bəzi xarici dövlətlər Azərbaycanın bu təcrübəsindən istifadə edir. Belə olan halda, xaricdə yaşayan Azərbaycanı istəməyən şəxslər və onların yerdəki əlaltıları əlbəttə ki, çox ciddi təşviş keçirirlər. Ona görə ki, onlar virusla mübarizədə Azərbaycanın müvəffəqiyyət qazanacağından narahatdırlar. Bu da onlarda qıcıq yaradır. Əlbəttə ki, onlar bilirlər ki, Azərbaycan iqtidarına heç nə edə bilməzlər. Çünki müxalifət olduqca zəifdir, marginallaşıblar, artıq onları müdafiə edənlər də yoxdur. Bir sözlə, müxalifətin xalq tərəfindən heç bir dəstəyi yoxdur".

T.Kərimli onu da bildirdi ki, bu çətinlikdən dövlətin dəstəyi, yardımı ilə çıxacağıq: "Prezident İlham Əliyev iki milyard yarım vəsait ayırıb və qeyd edib ki, Azərbaycan dövləti öz xalqını darda qoymayacaq və əlavə vəsaitlər də ayıracaq və bütün lazım olan tədbirləri görəcək. Hazırda müasir tipli xəstəxanalarda koronavirusa yoluxanların müalicəsi aparılır. Karantin rejimi də, çox müvəffəqiyyətlə aparılır. Demək olar ki, artıq Azərbaycanda koronavirus piki keçməkdədir. Ona görə də, Əli Kərimli indiki vaxtda insanları mitinqə çağıra bilməsə də, xaricdəki havadarlarına müraciət edir ki, Azərbaycan iqtidarına qarşı mübarizə aparsınlar. Hansı dövlətin müxalifəti, başqa dövlətin adamlarını öz dövlətinə qarşı mübarizəyə çağırır? Burda satqınlıq elementləri var. Həm də siyasi mübarizədə uduzmuş, hakimiyyətə gəlmək şansı olmayan bir zümrə cığallıq göstərir və istəyir ki, mümkün qədər iqtidarın imicinə ləkə vursun. Ancaq bu, keçməyəcək. Azərbaycan iqtidarı müvəffəqiyyətlə hərəkət edir, eyni zamanda bütün dövlət orqanları səfərbər olunub, ən böyük məqsədimiz Azərbaycan vətəndaşının yanında olmaqdır, ona kömək etməkdir, biz də bu sahədə əlimizdən gələni edirik. Yəni müxalifətin nə istəməsindən və etməsindən asılı olmayaraq, onların heç vaxtı ölkəmizlə bağlı məkrli planları baş tutmayacaq".

**GÜLYANƏ**

# Əli Kərimli dağıdıcı tərəfdarlarını silahlı müqavimətə səsləyir?



AXCP sədri Əli Kərimlinin dağıdıcı müxalifət düşərgəsindəki tərəfdarlarını dolayı yolla silahlı müqavimətə səsləyir. Radikalların "lideri" növbəti dəfə Sevinc Osmanqızının aparıcılığı ilə sosial şəbəkə üzərindən yayımlanan "Osmanqızı TV"də sətiraltı ifadələri ilə xüsusi karantin rejimindən sui-istifadə edərək, küçələri çıxmağa, icazəsiz aksiyalar keçirməyə çağırışlar edib. Məsələ ondadır ki, dünyada koronavirusun tüğyan etdiyi bir dönəmdən çirkin və xəyanətkar mövqeyini ortaya qoyan cəbhəçilərin sədri üçün xalq, dövlət marağı mövcud deyil.

*"Əli bəy bizi küçələrə səsləyir... Gəlin çıxaq küçələrə, polis postlarını dağıdaq, onlara qan udduraq, haqqımızı tələb edək..."*

### AXCP sədri dövlətin vətəndaşların sağlamlığının mühafizəsində dayanmasından qıcıqlanır

Dövlətin xalqın sağlamlığının mühafizəsi, xüsusilə də, sosial şəraitləri yetərli olmayan vətəndaşların qayğısına qalması istiqamətində atdığı addımları onun radikalizm və dağıdıcılıq kimi ucuz təfəkkürünü qıcıqlandırıb. O, yaxşı bilir ki, vətəndaşlıq mövqeyinə sadiq olan insanlar heç vaxt belə çağırışlara məhəl qoymur və ümumiyyətlə, AXCP sədri kimi onun heç bir nüfuzu da yoxdur. Ona görə də, bu vəziyyətini ört-basdır etməkdən ötrü S.Osmanqızı ilə əvvəlcədən planlaşdırılmış mövzunu müəyyənləşdirib, azsaylı tərəfdarlarını qanunsuz şəkildə çölə-bayıra çıxmağa, karantin rejimini pozmağa, vətəndaşların sağlamlığına zərər vurmağa səsləməkdədir.

### "Osmanqızı TV"dəki çağırışları sübut olunmasının ardınca Əli Kərimli dərhal geriyə addım atıb

O da əbəs deyil ki, bu ünsürün və onun "Milli Şura"sı ətrafındakı digər ünsürlərin hər biri bu çağırışları dəstəkləyən statusla paylaşırlar. Beləliklə, bu vasitə ilə o və yan-yörəsindəki dağıdıcı ünsürlər koronavirus pandemiyasının yaratdığı çətin şəraitdən istifadə edib ölkəmizə qarşı təxribat törətmək niyyətində olan AXCP sədri Ə.Kərimli indi də radikal cəbhəçiləri silahlanmaya və qan tökməyə çağırır.

Bu məsələnin daha bir ilginc tərəfi budur ki, ortada faktlar ola-ola, daha dəqiq desək, onun "Osmanqızı TV"dəki çağırışları sübut olunmasının ardınca Ə.Kərimli dərhal geriyə addım atıb. Yəni necə deyərlər, tüpürdüyünü yalayıb. O, yaxşı bilir ki, onsuz da ona kimsə inanmır, hətta tərəfdarları arasında onun cəbhəçiləri yarı yolda qoyub-qaçacağını dərk edənlər var.

### Mütləq qanunlar müqabilində öz layiqli cəzasını almalıdır!

Ancaq fakt-faktlığında qalır. Mövzuya aid fotofaktlardan da görünüyü kimi, Ə.Kərimlinin dağıdıcı ünsürləri əgər onun çağırışı olmasaydı, küçələrə çıxıb polislərə, hərbçilərə hücum etməyə aid rəylər yazmazdılar. Həmin statusların bir neçəsini bir daha təqdim edirik - "Əli bəy bizi küçələrə səsləyir", "Gəlin çıxaq küçələrə, polis postlarını dağıdaq, onlara qan udduraq, haqqımızı tələb edək", "Əlimizə daş, balta, armatur götürək", "Məmurların evlərinə hücum edək, qızıl, pul, bahalı əşyaları oğurlayaq" və s. Artıq bu kimi halların daha əvvəllər də yaşandığını nəzərə alaraq xalq ümid edir ki, ölkəmizdə ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş kütləvi itaətsizlik və radikalizm çağırışlarına görə AXCP sədri Ə.Kərimli mütləq qanunlar qarşısında öz layiqli cəzasını almalıdır!

**Rövşən RƏSULOV**

# Ermənilər təkcə müsəlmanların deyil xristianların da qənimidir

***Xristian dünyası tərəfindən süni sürətdə atılmış “erməni məsələsi” beynəlxalq konfransların gündəliyinə və barış sazişlərinin maddələrinə daxil edilməzdən öncə bu qalmaqallı toplumun - erməni xalqının yaşamı, öz milli - dini dəyərlərini mühafizə edib-etməmə durumu, iqtisadi vəziyyəti və s. istər-istəməz hər bir oxucuda maraq doğurur. Doğrudandamı ermənilər tarixən türklərdən saysız-hesabsız zülmlər, işgəncələr görmüş, dini inancları və milli adət-ənənələri və mədəniyyətləri assimilyasiya təhlükəsi ilə üzləşmişdi. Bugünkü erməni təbliğatına, o cümlədən, 1000-dən artıq erməni saytlarındakı iftira və hədyanlara cavab vermək üçün nəinki alimlərimiz, hətta hər bir azərbaycanlı ziyalısı, Azərbaycan vətənpərvəri və sadə həyat tərzi yaşayan orta təhsilli yurddaşımız da bu sualların cavablarında aciz qalmamalıdır.***

Bu məqsədlə də hər şeydən öncə oxucularımıza ermənilərin türklərlə münaqişədən əvvəlki durumunu əks etdirən bir neçə vacib məqamı, dünyanın ən müxtəlif dinlərinə və millətlərinə mənsub olan müəlliflərin (onların sırasında həmçinin, erməni müəllifləri də var) dilindən çatdırmaq istərdik:

İ.M. Dyakonov yazır: “Erməni etnosu Qafqazın hüdudlarından kənarda formalaşıb”.

“Ermənilər işğalçılar kimi gəlmiş və yerli əhalini əsarət altına almışlar”. (R.Hovannisyan)

“Ermənilər səkkiz əsr ərzində əvvəlcədən Səlcuq, sonra isə Osmanlı hökmranlığını məmnuniyyətlə qəbul etmiş, idarə sistemindən qətiyyən şikayət etmədən, öz dininə asudə itaətlə məşğul olmuş, dövlətdə mühüm vəzifələr tutmuş və ticarətdə hakim mövqeyə nail olmuşlar. Faktlar belədir”. (Fransız alimi, jurnalisti və hüquqşünası Jorj de Malevil)

“Biz həyatımız boyu türk millətinə borcluyuq, türklər olmasaydı, bu gün nə erməni milləti olardı, nə də erməni mədəniyyəti”. (Erməni yazıçısı Torkum Stepanyan) “Türkləri hər hansı bir “vəhşilikdə” necə ittiham edirlər etsinlər, yalnız bunu deyə bilərəm: Türkiyənin müxtəlif şəhərlərində erməni-müsəlman toqquşmaları haqqında şəxsən bütün mənə məlum olanlardan belə qənaətə gəlirəm ki, qanlı işlər hər yerdə məhz ermənilərin öz təşəbbüsü ilə başlanmışdır. Türklər Asiyanın nəinki müsəlman, həm də başqa xalqlarının ən yaxşı hissəsidir.” (Çar Rusiyasının Van və Ərzurumdakı baş konsulu Mayevski) “Türkiyə tarixi keçən yüzillikdə ermənilərin kütləvi təqibi haqqında heç bir fakt bilmir. Əksinə, onlardan çoxu 1915-ci il faciəsinə qədər yüksək dövləti vəzifələr tutmuşdu. Toqquşma nəticəsində tələfat isə hər iki tərəfdən döyüş əməliyyatının qanunauyğun nəticəsidir ki, genosid hesab edilə bilməz”. (Strasburqdakı Şərq Tədqiqatları İnstitutunun direktoru Pyer Dyümon) “Ermənilər indiki dövrdə milli varlıqlarına görə həqiqətən Səlcuq və Osmanlı türklərinə borcludurlar. Bizanslıların və ya digər Avropalıların əlində qalsaydı, erməni adı bu gün, sadəcə olaraq, tarix kitablarında saxlanılan bir ad ola bilərdi”. (Levon Dabağyan) “Erməni milləti (Bizans imperiyasının tərkibində ikən) zülm - əsarət altında qalmışdı. Bütün məmləkətimiz qan içindəydi. Bu qanlar vətənimizin bir ucundan o biri ucunadək dərya kimi aşıbdaşırdı”.

“(Bizans hökmranlığı altında ikən) məzhəbini dəyişmək istəməyən ermənilərin boğazına əridilmiş qurğuşun tökərək, ən faciəli ölümlərə mübtəla edirdilər”. (Qədim erməni tarixçisi Urfalı Matevos)

“Erməni kralı Qaqiqin əl-qolunu bağlatdırıb (bizanslılar) köpəklərə parçalatdırmışdılar...”

“Ermənilər Frikyadan gəlmədirlər. Onlar tədricən Frikyadan Şərqdə yerləşən yüksəkliklərə yiyələnib, oradan qədim urartululları sıxışdırıb, onların adına, dilinə və rəvayətlərinə yiyələnib, özlərininki ilə əvəz etdilər”. (Bu fikrin də müəllifi Lenormandır. O, bu qənaəti söylərkən Henrik Raulsonun ermənilər haqqında dediyi mülahizələri də təsdiq edib. İ.Q.Çavçavadze də Lenormanın fikirlərini yüksək qiymətləndirib.) Ermənilər... friklərlə birlikdə Qərbdən e.ə. 7- 6-cı əsrlərdə Şərqə gəlmişlər. (N. Pastermacyan) “Ermənilərin əcdadları Çorox çayı hövzəsindən gəlmişlər.

“Ermənilər həmişə yaşadıqları yerlərin yaramaz sahibləri olublar, öz yaxınlarını sataraq, həmişə güclü qonşularına məharətlə qulluq ediblər.” (Akademik Kerop Patkanyan)

Dünya xanımlarının bir qismi erməni qadınının bir qayda olaraq öz ərinə xəyanət etmə təcrübəsini, başıpapaqlısının həmin əməldən hali olmaması incəsənətini mənimsəməyə cəhd göstərsələr də, azları buna nail ola bilir. Yeniyetmə erməni qızları öz bakirəliklərindən elə erkən, elə həvəslə imtina edirlər ki, sanki onlar namus çəpərlərinin bütövlüyünü qorumurlar, üstlərinə qonmuş tozu çırpırlar.” (K.Marks, F. Engels)

“Ermənilərin alçaqlığı və əclaflığı təbii xarakterlərindən, bir növ genlərindən gəlir”. (İngilis hərbçisi Dikson) . “...aclıq illərində ermənilər bir-birini öldürür, oğul-uşaqlarını qızardıb yeyirdilər. Ər arvadını, arvad ərini, bir-birini öldürür, yeyir, doymurdular...” (Foma Metsonmski, erməni keşiş)

“Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla o, buraya gəlib, erməni olmazdan əvvəl və sonra hansı tayfalarla əlaqədə olub, onun dilinə, etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bunları sübuta yetirən aydın və dəqiq dəlillər yoxdur.” (Manuk Abeqyan)

“Kilikiyadan Qafqaza qədər uzanan ərazilər heç vaxt erməni xalqına məxsus olmayıb”. (Riçard Hovanisyan) “Əgər Movses Xorenatsinin (Musa Xorenli ) qədim Ermənistanı var idisə, onda mənə heç olmasa bunu təsdiq edən bir arxeoloji obyekt göstərin”. (Akademik Piotrovski)

“İndiki Ermənistan ərazisində ilk dövlət qurumu Sak çarlığı - qədim türk mənşəli dövlət idi”. (Erməni tarixçisi Q.Kapantsyan, “Hayasa”) “Bizim ikiüzlülüyümüz ana bətnindən peyda olur”. (Erməni şairi Yeğişe Çarens ) “Ulu şahım... Beynənnəhreyndən (Mesopotamiyadan) Van gölü sahillərinə, oradan da Qafa ( Qafqaza ) oğuz-türk torpaqlarına 5-5, 10-10 gələn ermənilər saziş şərtlərinə görə sənətkarlıqla məşğul olmaq əvəzinə, məskunlaşmağa can atır, ufacıq kilsələr tikdirir, 8 beləliklə, bu tayfanın Qafda qədim mövcudiyyəti təsəvvürünü yaradırlar ki, bu da istiqbalda nəsillərimizə baş ağrısı verəcək... Bu işləri indi Ağkilsə (Əçmiədzin) kəndində əyləşən dünya ermənilərinin katolikosu II Qriqori maliyyələşdirir... Qarışıq nigahlar məni qorxudur, Şahım! Mənə səlahiyyət ver, cəmi 15 min gəlməni mövsümi işçilər kimi qisim-qisim qaytarım Vətənin dışarına. Sənin qulun Rəvan Xan”. (İrəvan əyalətinin icmal dəftəri, 1519. İrəvan qalabəyisi və Qərbi Azərbaycan bəylərbəyi Rəvan xanın Şah İsmayıl Xətaiyə məktubundan) Qarabağ erməni əhalisinin diş sisteminin analizi göstərmişdir ki, bu ərazidəki əsl ermənilər gəlmədirlər. Əvvəlki Qarabağ erməniləri isə albanlardan dönmədirlər. (Məşhur akademiklər İ.Orbeli, S.Usremyan və b. erməni alimlərinin arasdırmalarından).

“Erməni xalqı öz dövlətçiliyindən çox tez - bizim eranın V əsrində məhrum olmusdur, həm də Qafqazda yox, Mesopotamiyada”. (Tarix elmləri doktoru Fəridə Məmmədovanın akademik A.Saxarovla dialoqundan).

“Bir çox illər bundan öncə Yerevanda, səs-küylü, qafqazaxas gecədə, arağın təsiri ilə ağırlaşmış bir erməni ilə qızğın diskussiyaya urcah oldum, hansı ki, məni ciddi şəkildə inandırmağa çalışırdı, İsa Məsih yarıermənidir.

- Axı necə ola bilər? Hansı yarısı? -deyə mən təəccübləndim. - Bəllidir ki, Məsihin anası yəhudidir, atası isə - Cənab Allahdır. Belə çıxır ki, Allah ermənidir?

- Başqa necə ola bilər? - deyə tamamillə ciddi şəkildə (erməni) müsahibim cavab verdi.” (“Komsomolskaya Pravda” qəzetinin əməkdaşı Darya Aslamova).

“Ermənilər Frikyadan gəlmədirlər. Onlar tədricən Frikyadan Şərqdə yerləşən yüksəkliklərə yiyələnib, oradan qədim urartululları sıxışdırıb, onların adına, dilinə və rəvayətlərinə yiyələnib, özlərininki ilə əvəz etdilər”. (Bu fikrin də müəllifi Lenormandır. O, bu qənaəti söylərkən Henrik Raulsonun ermənilər haqqında dediyi mülahizələri də təsdiq edib. İ.Q.Çavçavadze də Lenormanın fikirlərini yüksək qiymətləndirib.) Ermənilər... friklərlə birlikdə Qərbdən e.ə. 7- 6-cı əsrlərdə Şərqə gəlmişlər. (N. Pastermacyan) “Ermənilərin əcdadları Çorox çayı hövzəsindən gəlmişlər.

**Vahid Ömərov**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

15 aprel

## Arıqlama zamanı çəkinin orqanizmin yağ kütləsindən itirilməsi daha yaxşıdır

Arıqlamaq üçün pəhriz saxlayanlar, idmanla məşğul olanlar da, müxtəlif dərmanlardan istifadə edənlər də var. Çəkidən xilas olmaq üçün istehsal olunan məhsullar istifadəçilərə müxtəlif formalarda - bitki çayları, qəhvə və həblər şəklində təqdim olunur. Qısa zamanda təsir göstərən preparatlardan istifadə olunmasını mütəxəssislərin çoxu məqsədəuyğun hesab etmir.

Satış statistikası isə həmin preparatların alıcılarının heç də az olmadığını göstərir. Təbii ki, arıqlamaq istəyən hər kəs qısa vaxtda nəticə əldə etmək arzusundadır. Həmin məhsulların dadı xoşagələn və təsiri səmərəlidir. Bəs onların sağlamlığa zərəri varmı?

Həkim-diyetoloq Ləman Süleymanova AZƏRTAC-a deyib: "Bəzən insanlar tərəzidə çəkilərinin azaldığını göröndə sevinirlər, əslində isə azalan çəki su və əzələ itkisidir. Həftədə 0,5-1 kiloqram çəki itirilməsi normal sayılır və çəkinin orqanizmin yağ kütləsindən itirilməsi daha yaxşıdır. Riskli qidalardan alınan vitaminlər bağırsaqlarda rahat mənimsənilmir. Orqanizm həmin məhsulları mənimsəməmiş onların bədəndən xaric olması nəticəsində vitamin və mineral çatışmazlığı yaradır. Bir müddət sonra həmin insanlar saçlarının tökülməsi, aqressivlik və s. hallarla üzləşərək həkimə müraciət edirlər". Həkim-diyetoloqun dediyinə görə, arıqlamaq üçün pəhriz saxlamaq və fiziki hərəkətlə məşğul olmaq daha məsləhətlidir: "Yaxşı olar ki, çekap müayinədən keçərək kökəlmənin səbəbi öyrənilsin və bundan sonra arıqlamaq daha rahat olacaq. Arıqlamaq üçün hər gün fiziki aktivlik nümayiş etdirmək və bağırsaqlarda faydalı bakteriyaları artırmaq lazımdır və hətta bunun üçün əlavə probiotiklərdən də istifadə etmək olar. Təbii ki, balanslaşdırılmış və düzgün qidalanmaq da ən əsas şərtlərdən biridir".

İstənilən halda orqanizmlə əlaqədar verilən qərarlarda həkim məsləhəti vacibdir, çünki mütəxəssis tövsiyəsi olmadan pəhriz saxlamaq bəzən sağlamlıq üçün fəsadlar törədə bilər.



## Tanınmış Amerikalı teleaparıcı koronavirusa yoluxub



Tanınmış Amerika teleaparıcısı, "Amerika, sabahın xeyir" verilişinin aparıcısı Corc Stefanopulosdan koronavirus COVID-19 üçün götürülən testin analizi pozitiv çıxıb. AZƏRTAC xəbər verir ki, Stefanopulos bu barədə həyat yoldaşı, aktrisa və bestsellerlər müəllifi Ali Ventvort ondan koronavirus COVID-19 üçün götürülmüş testin müsbət nəticə verməsini təsdiqlədikdən iki həftə sonra birbaşa efirdə bəyan edib.

Ventvort virusun yaxınları və tanışları arasında yayılmasının qarşısını almaq məqsədi ilə Stefanopulosların Nyu-Yorkdakı evində özünütəcrid edib. Bazar ertəsi günü ABŞ-da COVID-19 virusuna yoluxanların sayı 587.000 nəfərdən çox olub, bu virusdan ölənlərin sayı isə 23.644 nəfərə çatıb.

## Ukraynada 600-ə yaxın tibb işçisi koronavirusa yoluxub

Ukraynada 600-ə yaxın tibb işçisi koronavirusa yoluxub. AZƏRTAC xəbər verir ki, bu barədə ölkənin Səhiyyə naziri Maksim Stepanov keçirdiyi brifinqdə məlumat verib. Onun sözlərinə görə, son sutkada 64 tibb işçisi koronavirusa tutulub. Ukraynada koronavirus epidemiyasının başlandığı vaxtdan indiyə kimi bu virusla bağlı 1659 tibb işçisi test edilib, onlardan 594-nün koronavirusa tutulduğu təsdiqlənib.





## Mario Balotelli "Qalatasaray"a keçir?

İtaliya futbolunun ulduzlarından olan Mario Balotelli yeni mövsümdən etibarən Türkiyənin "Qalatasaray" klubunun heyətinə keçə bilər. "Qalatasaray" İtaliyanın "Breşiya" klubunun oyunçusu Mario Balotellini heyətinə cəlb etmək üçün danışıqlara başlayıb. Türk klubunun təklifi ikiillik müqavilədir. Xatırladaq ki, Balotellinin cari müqaviləsinin müddəti növbəti mövsümün sonunda bitir. Oyunçunun agenti Mino Rayolo təklifə müsbət yanaşdıqlarını bildirib.

## Bakıda saxta əskinaslar satan dəstə zərərsizləşdirilib

Bakı şəhər sakinləri N.Qədirov, E.Abdullazadə, N.Hüseynov, C.Dövlətov və M.Usubova aprelin 9-da Nərimanov rayonu ərazisində 24 ədəd 100 manatlıq saxta əskinası (2400 manat) şərti alıcıya satarkən Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla əlaqədar cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.



## İçərisində 11 min dollardan çox pul olan seyf oğurlanıb



Xəzər və Xətai rayonları ərazisində oğurluqla məşğul olan şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər rayonu ərazisindəki evlərin birindən içərisində 11.700 ABŞ dolları olan seyf oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini S.Tağıyev Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Xətai rayonu ərazisindəki apteklərin birindən 4500 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Həsənov isə Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Hər iki faktla bağlı araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**